EVDƏ QAL, SAĞLAM QAL!

Prezidentə yazırlar: Ölkəmizdəki milli həmrəylik Sizin müdrikliyinizi və xalqın Sizə inamının sarsılmaz olduğunu göstərir



Bax 3

Kaliforniya radiosunda erməni daşnaklarının Hitlerə və Holokosta rəğbətini ifşa edən sənəd müzakirə olunub



Bax 2



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 101 (6066) 19 iyun 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezident İlham Əliyev Vladimir Putinə telefonla zəng edib

*İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib. Prezidentin Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, dövlətimizin başçısı Azərbaycanda karantin tədbirlərinin uzadılması ilə əlaqədar Moskvada Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda əvvəlcədən planlaşdırılmış iştirakının mümkün olmadığını təəssüf hissi ilə bildirib və qeyd edib ki, ölkəmiz bu tədbirdə Müdafiə naziri və Azərbaycan Ordusunun 75 nəfər hərbi qulluqçusu ilə təmsil olunacaqdır...*



Bax 2

### Əli Əhmədov: "Xalqın rəyi nəzərə alınmadan İrəvanın ermənilərə verilməsi həmin qərarı verənlərin tarixi məsuliyyətini qat-qat artırır"



"Tariximizin şərəfli səhifələrinin yazıldığı dövrlərdə Azərbaycanın tarixinə qara ləkə kiimi daxil olmuş hadisələr də baş verdi ki, bunun da araşdırılması və düzgün tarixi qiymətin verilməsi böyük əhəmiyyət kəsb edir". Bu fikirləri Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu gün Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "İrəvan tarixi...

Bax 5

### Ramin Bayramlı: Yeganə ümid virusun öz-özünə mutasiyaya uğramasınadır



Xəstəliyin qarşısının qəti şəkildə alınması karantin rejiminin tətbiqi ilə mümkün olmayacaq. Xəstəliyin yox edilməsinin bir yolu var ki, o da xəstəlik əleyhinə peyvəndin tapılması və ya dərman müalicəsinin...

Bax 5

### DSX: Azərbaycan-İran sərhədində silahlı insident olub

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsi sahəsində qətiyyətli tədbirləri davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, iyunun 17-də saat 21:40 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Cəlilabad rayonunun Kürünc kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti...

Bax 5

### Azərbaycanın bir sıra şəhər və rayonlarında iki həftəlik sərt karantin rejimi tətbiq ediləcək



Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Yevlax, Cəlilabad, Masallı şəhərlərində və Abşeron rayonunda 21 iyun saat 00.00-dan 5 iyul saat 06.00-dək cidi karantin rejimi tətbiq ediləcək. AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın dünən...

Bax 2

### "Qarabağ" Azərbaycan çempionu elan edildi!

*Dünən AFFA-nın İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib. Qol.az-ın xəbərinə görə, iclasda AFFA-nın...*



Bax 6

Baş infeksionist: "Ölüm sayı artır, vəziyyət ciddidir"



Bax 8

Vüqar Rəhimzadə: Qərbin demokratiya institutları işğalçı Ermənistanı nə zamanadək ərköyünləşdirəcək?



Bax 10

Müxalifətçi deputatdan "Milli Şura"ya eyham və ittiham



Bax 14

# Prezident İlham Əliyev Vladimir Putinə telefonla zəng edib

*İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib. Prezidentin Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, dövlətimizin başçısı Azərbaycanda karantin tədbirlərinin uzadılması ilə əlaqədar Moskvada Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda əvvəlcədən planlaşdırılmış iştirakının mümkün olmadığını təəssüf hissi ilə bildirib və qeyd edib ki, ölkəmiz bu tədbirdə Müdafiə naziri və Azərbaycan Ordusunun 75 nəfər hərbi qulluqçusu ilə təmsil olunacaqdır.*



Vladimir Putin vəziyyətə anlayışla yanaşdığını qeyd edərək, telefon zənginə görə təşəkkürünü bildirib. Dövlət başçıları Rusiya-Azərbaycan sərhəddində yaranmış vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev bildirib ki, onun Rusiya Prezidenti ilə bu il mayın 18-dəki telefon danışığından ötən dövr ərzində Samur keçid məntəqəsindən 700-ə yaxın, bütövlükdə bir ay ərzində isə quru və hava yolları ilə 1000-ə yaxın Azərbaycan vətəndaşı Rusiyadan ölkəmizə gətirilib. Prezidentlər müvafiq dövlət strukturlarına sərhəddə vəziyyətin tənzimlənməsi ilə əlaqədar əlavə tapşırıqların verilməsi barədə razılaşıblar.

# Maqomedali Maqomedov yüksək mükafata görə Prezident İlham Əliyevə təşəkkür edib



Rusiya Federasiyasının Əmək Qəhrəmanı, Dağıstan Respublikası Dövlət Şurasının Fəxri sədri Maqomedali Maqomedov yüksək mükafat - "Dostluq" ordeni ilə təltif edildiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. AZƏRTAC "RİA Dağıstan" informasiya agentliyinə istinadən Maqomedali Maqomedovun məktubunu təqdim edir. Məktubda deyilir:

"Hörmətli İlham Heydər oğlu.

Məni şərəfləndirdiyinizə - Azərbaycan Respublikasının yüksək dövlət mükafatı olan "Dostluq" ordeni ilə təltif etdiyinizə görə Sizə səmimi qəlbdən təşəkkür edirəm. Mən bütün ictimai-siyasi fəaliyyətim dövründə Dağıstan və Azərbaycan xalqları, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında ənənəvi qardaşlığın və dostluğun möhkəmləndirilməsi üçün var qüvvəmlə çalışmışam.

Mənə Sizin dahi atanız, yeni Azərbaycanın banisi və ümummilli lideri Heydər Əliyevlə işləmək və dostluq etmək xoşbəxtliyi nəsib olub. Siz onun işlərini layiqincə və uğurla davam etdirirsiniz. Əməksevər Azərbaycan xalqı Sizin rəhbərliyinizlə ölkənin sosial-iqtisadi və siyasi inkişafında böyük uğurlar qazanıb. Siz Rusiya Federasiyası ilə dostluğun möhkəmləndirilməsinə yönəlmiş siyasətiniz və fəaliyyətiniz ilə öz xalqınızın, dağıstanlıların və rusiyalıların nəzərində böyük nüfuz qazanmısınız. Hörmətli İlham Heydər oğlu, Sizə və Azərbaycan xalqına daha böyük müvəffəqiyyətlər arzu edirəm".

# Kaliforniya radiosunda erməni daşnaklarının Hitlerə və Holokosta rəğbətini ifşa edən sənəd müzakirə olunub

*Kaliforniyanın San-Dieqo şəhərində fəaliyyət göstərən, ABŞ-da çapdan çıxmış "Dağlarda qətl: Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi" və "Erməni lobbisi və ABŞ-ın xarici siyasəti" kitablarının müəllifi jurnalist Raul Kontreras (Raoul Contreras) özünün "The Contreras Report" radio proqramında ötən ay Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun ABŞ Konqresinin arxivlərində apardığı araşdırma nəticəsində aşkar olunmuş, erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəslədiklərini ifşa edən sənəd haqqında dinləyicilərə məlumat verib.*




Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, verilişdə müəllif 1945-ci ildə ABŞ Nümayəndələr Palatasının Miçiqan ştatından olan üzvü, konqresmen Frank Hookun erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəslənələri, irqçi meyilləri, habelə onların ABŞ ərazisində törətdikləri terror aktları barədə məqaləni Konqresin plenar iclasına təqdim etdiyini deyib, həmin sənəddən çoxlu sayda sitatlar gətirərək, məsələ ilə bağlı ətraflı müzakirələr aparıb.

R.Kontreras İkinci Dünya müharibəsi illərində faşist Almaniyası ordusu tərkibində yaradılmış erməni legionu, onun rəhbərlərindən olan erməni generallar Qaregin Njde və Drastamat Kanayan haqda ətraflı danışıb, onların bu gün Ermənistanda milli qəhrəman səviyyəsinə qaldırıldığını, 2016-cı ildə Yerevanda Q.Njdeyə heykəl ucaldıldığını vurğulayıb.

Jurnalist ABŞ-da əsas erməni lobbi təşkilatı olan Amerika Erməni Milli Komitəsinin (ANCA) radikal və irqçi daşnakların davamçısı olduğunu, onların bir sıra amerikalı konqresmenləri ələ alaraq bu ölkə tərəfindən Ermənistana maddi yardımın ayrılmasına nail olmağa çalışdıqlarını diqqətə çatdırıb. O, həmin vəsaitlərin ABŞ vergiödəyicilərinin pulları əsasında formalaşdığını deyib və bunu yolverilməz adlandırıb.

# Milli Məclisin növbəti plenar iclası iyunun 19-da keçiriləcək

Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası iyunun 19-da keçiriləcək. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasın gündəliyinə 13 məsələ daxil edilib.

# Azərbaycanın bir sıra şəhər və rayonlarında iki həftəlik sərt karantin rejimi tətbiq ediləcək



Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Yevlax, Cəlilabad, Masallı şəhərlərində və Abşeron rayonunda 21 iyun saat 00.00-dan 5 iyul saat 06.00-dək ciddi karantin rejimi tətbiq ediləcək. AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın dünən keçirilən brifinqində məlumat verib.

# Avropa Xalq Partiyasının prezidenti: münaqişələr tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyü əsasında nizamlanmalıdır

*Avropa İttifaqı Şurasının sabiq prezidenti, Avropa Xalq Partiyasının prezidenti Donald Tusk bütün "Şərq Tərəfdaşlığı" məkanında davam edən regional münaqişələrin beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyü əsasında nizamlanmasına çağırıb.*



Tusk bugünkü bəyanatında vurğulayıb ki, onun partiyası Aİ-nin "Şərq Tərəfdaşlığı" proqramına üzv dövlətlərin tanınmış sərhədləri çərçivəsində onların ərazi bütövlüyünü dəstəkləyir. AZƏRTAC xəbər verir ki, Tuskun bəyanatında işğalçılar və onların separatçı oyuncaqları tərəfindən spekulyasiya edilən "təyini-müqəddərat hüququ"nun adı belə çəkilmir.

Bəyanatda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ATƏT-in Minsk qrupunun səylərinin dəstəklənməsi bildirilir. İki digər prinsiplə yanaşı, məhz 1975-ci ilin Helsinki Yekun Aktı kontekstində təyini-müqəddərat hüququnun daxil olduğu ATƏT-in Minsk qrupunun baza prinsiplərinə istinad edilməsi faktı o deməkdir ki, Avropa Parlamentinin ən iri partiyalarından biri "Şərq Tərəfdaşlığı" proqramının iştirakçı dövlətlərindən hər hansı birinin ərazi bütövlüyünü pozan hansısa xarici təyini-müqəddəratı rədd edir.

Bu mövqeni vurğulamaq və spekulyasiyaya bəhanə yaratmamaqdan ötrü Tusk bilərəkdən öz bəyanatında "təyini-müqəddərat hüququ"nu xatırlatmayıb.

# Prezidentə yazırlar: Ölkəmizdəki milli həmrəylik Sizin müdrikliyinizi və xalqın Sizə inamının sarsılmaz olduğunu göstərir



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir. Ölkə vətəndaşları Azərbaycanda həyata keçirilən islahatlara, görülən abadlıq-quruculuq işlərinə, həmçinin pandemiyaya qarşı aparılan səmərəli mübarizəyə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə edirlər. Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edirik.***

Füzuli rayonundan məcburi köçkün, Milli Qəhrəman oğlu Xaliq Fərzəliyev yazır: "Hörmətli cənab Ali Baş Komandan, mən Azərbaycanın Milli Qəhrəmanı şəhid Pəhlivan Fərzəliyevin oğluyam. Sizin sayənizdə ötən il işə qəbul olundum.

Ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olaraq Sizin şəhid ailələrinə, Qarabağ müharibəsi əlilləri və veteranlarına, məcburi köçkünlərə diqqət və qayğınız yüksək səviyyədədir. Bunları görməmək mümkün deyildir.

Cənab Prezident, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizin inkişafı yolundakı addımlarınızı bəyənən və bu dəyərlərlə yaşayan insanam. Sizə şəxsən öz adımdan, ailəmin adından, Milli Qəhrəman ailələri adından, Füzuli rayon sakinləri adından dərin təşəkkürümü bildirirəm.

Dünyanı bürüyən koronavirusla bağlı lazımlı addımlarınız da təqdirəlayiqdir. Sizin kimi Vətənini, xalqını sevən Prezidentimiz olduğu üçün biz çox da əziyyət çəkmədik. Sosial vəziyyəti aşağı olan ailələrə birdəfəlik ödəmələr və yardımlar edilməsi xalqa böyük kömək etdi. Sizin və Mehriban xanımın bir illik əməkhaqqınızı koronavirusla bağlı yaradılmış fonda ianə etməyiniz çox böyük, humanist addım idi.

Cənab Prezident, bütün bunlara görə bir daha Sizlərə təşəkkür edir, uzun ömür, cansağlığı arzulayıram. Biz - Milli Qəhrəman və şəhid övladları Sizin əsgərlərinizik. Sizin bir əmr və göstərişiniz kifayət edir ki, atalarımız kimi Vətənin müdafiəsinə qalxaq".

Ağdam rayonunun Qasımbəyli qəsəbəsindən 8-ci sinif şagirdi Xəyal Abdullayev: "Möhtərəm Prezident, bu gün biz bəşəriyyətin böyük sınaqla üzləşdiyi çətin dövrdə, koronavirus pandemiyasının tüğyan etdiyi bir vaxtda gücլü mübarizə aparılmasına baxmayaraq dünyanın bir sıra yerlərində, o cümlədən inkişaf etmiş Avropa ölkələrində hər gün yüzlərlə insan bu dəhşətli xəstəliyin qurbanına çevrilir. Lakin koronavirus infeksiyasının qlobal təhlükəyə çevrilməyə başladığı ilk gündən etibarən Sizin qəbul etdiyiniz qərarlar pandemiyanın ölkəmizdə geniş yayılaraq kütləvi insan ölümünə səbəb olmasının qarşısını aldı. Sizin çevik və yüksək idarəetmə bacarığınız sayəsində infeksiyaya yoluxmaların sayı aşağı həddə saxlanılmaqdadır.

Cənab Prezident, bu xeyirxah işinizə görə Sizə uzun ömür, cansağlığı arzulayır, uğurlar diləyirəm".

Ağdam rayonundan şəhid ailəsinin üzvü Bəhman Gülmalıyev: "Çox hörmətli cənab Prezident, mən Ağdam rayonunun Xıdırlı kəndindən məcburi köçkünəm. Qardaşım torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Mən öz ailə üzvlərimlə birlikdə məcburi köçkün düşdükdən sonra 16 il Yevlax rayonunda yerləşən EKO qəsəbəsində yaşamışam. Ulu öndərimiz Heydər Əliyev həmin qəsəbədə iki dəfə olub, hətta bir toy məclisində də iştirak edib. Sonra Sizin rəhbərliyinizlə Yevlax şəhərində bütün standartlara cavab verən müasir mənzillər, məktəb, uşaq bağçası ilə təmin olunduq. Hazırda qəsəbəmizdə 615 ailə məskunlaşıb.

Çox hörmətli cənab Prezident, biz - məcburi köçkünlər, şəhid ailələri Sizin və Mehriban xanım üçün gecə və gündüz Allaha dua edirik. Sizin son dövrlərdə həyata keçirdiyiniz kadr siyasətini də ürəkdən dəstəkləyirik. Xalqın malına, xüsusilə də imkansız ailələrə ayrılan yardımlara göz dikən şəxslərin cəzalandırılması digərlərinə örnək olmalıdır. Bütün qaçqın və məcburi köçkünlər, şəhid ailələri və 20 nəfərlik ailə üzvlərim adından Sizə minnətdaram. Ona görə ki, Siz xalqını, Vətənini, torpağını sevən və müstəqil Azərbaycanın inkişafı yolunda durmadan çalışan lidersiniz. Biz Sizinlə fəxr edirik. Allah Sizə yar olsun.

Siyəzən rayonundan 2-ci qrup əlil Tural Tağıyev yazır : "Hörmətli cənab Prezident, "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması məqsədilə imzaladığınız Sərəncam bizləri çox sevindirdi. Tarixi abidələrimizin bərpa olunaraq gələcək nəsillərə ötürülməsi təqdirəlayiqdir və tariximizə verdiyiniz yüksək qiymətdir. Biz gənclər Sizin hər sahədə apardığınız siyasəti dəstəkləyirik. Çünki Siz ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısısınız. Allah Sizi və ailənizi qorusun".

Cəlilabad rayonunun Qarazəncir və Maşlıq kəndlərinin sakinləri adından Rövşən Ağayev, Vüsal Məmmədov, Əhmədağa Məmmədov, Emil Abbasov, Calal Mehtiyev və Habil Babayev: "Əziz və hörmətli cənab Prezident, pandemiya ilə əlaqədar ölkəmizdə karantin rejiminin tətbiqi xalqımız və iqtisadiyyatımız üçün sınaq dövrü oldu. Belə bir çətin vəziyyətdə Siz hər zaman olduğu kimi yenə də sahibkarlara və fermerlərə dəstək verərək onların yanında oldunuz. İstehsal edilən kənd təsərrüfatı məhsullarının, xüsusilə də kartofun Rusiya bazarlarına daşınmasında və satılmasında kəndlərimizin fermerlərinə böyük kömək göstərildi. Sizin sayənizdə xaricə çıxışımız təmin olundu, bu işdə heç bir çətinliyimiz yaranmadı.

Göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirik. Qoy, həmişə Siz və ailəniz biz vətəndaşların qarantı olaraq daim öndə və yüksəklərdə olasınız.

Çox sağ olun, cənab Prezident".

Bakı şəhərinin Sabunçu rayonunun Bakıxanov qəsəbəsindən Vaqif Həmidov, İlham Alışov, Coşqun Paşalı və Kənan Seyidov dövlətimizin başçısına təşəkkürlərini bu sözlərlə ifadə edirlər: "Hörmətli cənab Prezident, Siz mürəkkəb vəziyyətdə möhkəm iradə nümayiş etdirməklə bir daha sübut etdiniz ki, Siz hər bir Azərbaycan vətəndaşının Prezidentisiniz. İlk olaraq onu bildirmək istəyirik ki, hər bir Azərbaycan vətəndaşı Sizinlə qürur duyur. Cəmiyyətimiz bir daha yüksək keyfiyyət ifadə edərək göstərdi ki, xalqımızla Prezidentimiz birdir. Vətəndaş olmaq öz məsuliyyətinin fərqində olmaq deməkdir. Hər zaman üzləşdiyimiz qlobal problemlərdən Siz Azərbaycanı üzüağ çıxartmısınız. Bu çətin günlərdə qəbul etdiyiniz qərarlara, özəl sektora verdiyiniz dəstəyə görə hər bir vətəndaş Sizinlə qürur duyur. Vaxtında təxirəsalınmaz tədbirlər gördüyünüzə görə sağlam şəkildə ailələrimizin yanındayıq. İnşallah, Sizin uzaqgörən siyasətiniz, müdrikliyiniz sayəsində COVID-19 deyilən bu bəladan xilas olacağıq.

Bir məsələni də xüsusi qeyd etmək istəyirik. Bu yaxınlarda üzləşdiyimiz çətinliyin aradan qaldırılması ilə əlaqədar Sizə ünvanladığımız müraciətimiz müsbət həllini tapdı. Bu da biz vətəndaşlara olan diqqətin bir nümunəsidir.

Sizə məsuliyyətli və şərəfli işinizdə uğurlar arzulayırıq, cənab Prezident. Sizi alqışlamaq hər bir Azərbaycan vətəndaşının borcudur. Vətənimizin inkişafı və tərəqqisi, xalqımızın sağlamlığı naminə Siz hər şeyi edirsiniz. Ulu Tanrı Sizi və ailənizi qorusun".

Şirvan şəhərindən Gülnarə Azayeva: "Hörmətli Prezidentimiz, bütün dünyada geniş yayılmış və dövlətlərin olduqca çətin vəziyyətə düşdüyü koronavirus pandemiyası dövründə Sizin rəhbərliyiniz altında ölkəmizdə çox ciddi tədbirlər həyata keçirilir. Vətəndaşlarımıza dövlət tərəfindən göstərilən maddi dəstək, səhiyyə işçilərinin əmək haqlarının artırılması, yeni modul tipli xəstəxanaların istifadəyə verilməsi, xəstəxanalarda müalicəyə cəlb olunmuş xəstələrə göstərilən hərtərəfli qayğı, infeksiyanın yayılma sürətinin azaldılması üçün Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və bir sıra rayonlarda xüsusi karantin rejiminin sərtləşdirilməsi, digər dövlətlərlə müqayisədə infeksiyadan daha az itki ilə çıxmağımıza böyük kömək göstərir. Bütün bunları görərək, Sizə minnətdarlıq etməyi özümə borc bilirəm. Mən fəxr edirəm ki, Sizin kimi dövlət başçımız var və bir vətəndaş olaraq olduqca rahatam ki, xalqımızın üzləşdiyi bu çətin günlərdə də çıxış yolu tapıb xalqımızı öz arxanızca aparacaqsınız. Xalqımızın sağlam gələcəyi naminə həyata keçirdiyiniz bütün tədbirlərə görə ailəmin adından Sizə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya çox-çox minnətdarlıq edirəm. Tanrı Sizi, ailənizi və xalqımızı bu bəladan qorusun".

Ağcabədi rayonundan Əli Fətəliyev: "Hörmətli cənab Prezident, bir Azərbaycan vətəndaşı, yaşlı nəslin nümayəndəsi kimi bu məktubu Sizə böyük qürur hissi və sevgi ilə yazıram. Azərbaycan vətəndaşı kimi dünyada, eləcə də, Azərbaycanda gedən prosesləri yaxından izləyirəm. Fəaliyyətinizi, Azərbaycan xalqına göstərdiyiniz əvəzolunmaz xidmətlərinizi yüksək qiymətləndirirəm. Koronavirus pandemiyasının başlanğıc mərhələsində ölkəmizdə Sizin tərəfinizdən çox ciddi, davamlı və təsirli tədbirlər həyata keçirildi. Azərbaycan dövlətinin atdığı addımlar dünyanın bir çox ölkələri üçün nümunə oldu. Sizin bütün qərarlarınızla həmrəyik. Hamımız inanırıq ki, bu qərarlar bizi bu bəladan minimum zərərlə qurtaracaq. Biz hər zaman, eləcə də pandemiya dövründə Sizin dəstəyinizi öz üzərimizdə hiss edirik. Biz Sizi və fəaliyyətinizi dəstəkləyir, Sizə güvənirik. Xoşbəxt xalqıq ki, Sizin kimi Prezidentimiz var. Sizə minnətdarıq, cənab Prezident".

Gədəbəy rayonunun Gərgər kəndindən Nuru Rəsulov, Qənirə Ələsgərova, Səyyad Allahverdiyev, Rəhman Abbasov, Ədəd Nağıyev, Vüqar Kamalov, Həcər Tağıyeva : "Hörmətli cənab Prezident, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan bu gün Sizin apardığınız uğurlu siyasət nəticəsində uğurla inkişaf edir.

Cənab Prezident, biz gədəbəylilər xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Sizi ürəkdən sevir və Sizinlə qürur duyuruq. Sizin respublikamıza rəhbərlik etdiyiniz dövrdə Azərbaycanın hər bir guşəsində abadlıq işləri görülüb, kənd və qəsəbələrdə infrastruktur yaxşılaşdırılıb, insanlar firavan həyata qədəm qoyublar. Qədirbilən gədəbəylilər Sizin ölkəmizin dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda göstərdiyiniz misilsiz xidmətləri çox yüksək dəyərləndirirlər. Hər zaman xalqın yanında olmağımız və həyata keçirdiyiniz sosial siyasətiniz bu reallığı tam əks etdirir. Azərbaycanın gündən-günə inkişaf etməsi, dünya dövlətləri arasında nüfuzunun artması istiqamətində işlər xalqımız və gədəbəylilər tərəfindən minnətdarlıqla qarşılanır. Rayonumuzun davamlı sosial-iqtisadi inkişafına daim diqqət yetirməyiniz bizi ürəkdən sevindirir.

*Ardı Səh. 4*

# Prezidentə yazırlar: Ölkəmizdəki milli həmrəylik Sizin müdrikliyinizi və xalqın Sizə inamının sarsılmaz olduğunu göstərir

Əvvəli Səh. 3



Cənab Prezident, bu günlərdə Gərgər kəndində elektrik xətlərinin, işıq dirəklərinin, transformatorların yenilənməsi və qaz xəttinin çəkilməsi bütün sakinlərin sevincinə səbəb oldu. Bütün bunlara görə Sizə dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk".

Bakı şəhərindən Sənan Məmmədov yazır: "Hörmətli cənab Prezident, bir Azərbaycan gənci olaraq Sizlə fəxr edirəm. Bu çətin vəziyyətdə inamlı və qətiyyətli addımlarınız bizə qürur verir. Bir gənc olaraq daim Sizin siyasətinizi dəstəkləyirəm və Azərbaycanda ictimai rəyi mənfiyə doğru dəyişmək istəyənlərə qarşı bacardığım qədər mübarizə aparıram. Bu mənim vətəndaşlıq borcumdur və hər bir şəxs bunu dərk etməlidir. Biz Sizinləyik və bu həmişə belə olacaq. Azərbaycanımızın qədim və dəyərli tarixi və bu tarixin sarsılmaz sütunları var ki, Siz bu sütunları dağılmağa qoymursunuz və gündən-günə daha da möhkəmləndirirsiniz. Söz o vaxt söz olur ki, əmələ çevrilsin. Sizin bütün işləriniz əməldir. Heç kəsin şübhəsi olmasın ki, nə qədər ki, Azərbaycanımızı, rəhbərimizi ləkələməyə çalışsalar da, bu onların öz başlarını ağrıdacaq. Çünki ata yurduna xəyanətin heç bir əsası ola bilməz və öz şəxsiyyətlərini satanlar, milli heysiyyətinə, dövlətinə, rəhbərinə xəyanət edənlər bir gün çox peşman olacaqlar. Sizin xarici və daxili siyasətinizi yaxından izləyirəm və dəstəkləyirəm. Biz çörəyimizi paylaşsaq da, torpağımızı heç vaxt paylaşmarıq. Əminəm ki, Qarabağ problemimiz də həll olunacaq və bu Sizin siyasi dahiliyinizi bir daha göstərəcək. Mən Sizinlə fəxr edirəm. Siz var ikən Azərbaycanımız əmin əllərdə olacaq. Sizə təşəkkür edirəm".

Salyan rayonunun Seyidsadıqlı kəndindən Vidadi Baloğlanov, Rahat Məmmədov, Emin Mirzəyev, Vüqar Mustafayev, Təbriz Səmədov və başqaları: "Möhtərəm cənab Prezident, son zamanlarda pandemiya ilə əlaqədar olaraq dünyanın bir çox ölkələri iqtisadi cəhətdən böhrana düçar olmuşdur. Amma, Azərbaycan Respublikası Sizin rəhbərliyiniz ilə çətinliklərin öhdəsindən gəlməkdədir.

Salyan rayonu Seyidsadıqlı kəndində gənc ailələrin yaşadığı yeni yaşayış məhəlləsində elektrik xətləri kustar üsulla çəkilmişdi. Güclü külək əsəndə elektrik enerjisinin verilməsində fasilələr yaranırdı. Sizin kəndlərə göstərdiyiniz diqqət və qayğının nəticəsidir ki, həmin yaşayış məhəlləsində elektrik təsərrüfatı yenidən qurulmuş, əhali fasiləsiz və keyfiyyətli elektrikdən istifadə etməkdədir. Bütün bu görülən işlər Sizin biz vətəndaşlara göstərdiyiniz qayğının nəticəsidir.

Cənab Prezident, biz Seyidsadıqlı kənd sakinləri Sizinlə qürur duyuruq. Sizə daha böyük uğurlar arzu edirik. Biz həmişə Sizinləyik".

Bakı şəhərinin Suraxanı rayonundan tələbə Nübar İbrahimova yazır: "Hörmətli cənab Prezident, pandemiya dövründə xalqımız çətin günlər keçirir. Amma buna baxmayaraq Sizin diqqət və qayğınız sayəsində biz ayaq üstə qalmağı bacarırıq. Bir gənc olaraq Sizin gördüyünüz işləri yüksək qiymətləndirirəm.

Sizin göstərişinizlə iki ayı əhatə edən birdəfəlik ödəmənin verilməsi, Heydər Əliyev Fondu tərəfindən ərzaq yardımlarının edilməsi, əhalinin müalicəsi üçün lazımi şəraitin yaradılması çox müsbət haldır. Bizə olan diqqət və qayğınıza görə Sizə şəxsən öz adımdan və ailəmin adından dərin minnətdarlığımı bildirirəm. Ulu Tanrı hər zaman köməyiniz olsun".

Bakı şəhərinin Xətai rayonundan Mehrab Dadaşov, Elçin Cavadov, Pərviz Mehtiyev, Vüqar Əliyev, Vüsal Əmrahlı və başqaları: "Hörmətli cənab Prezident, 2003-cü ildən başlayaraq Azərbaycanda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluq və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalıb, vətəndaşların rifah halı yüksəlib, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sistemi təkmilləşdirilib, insan kapitalının və sosial infrastrukturun inkişafına nail olunub, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilib. Ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiqlik və rəhbərliyinizlə aparılan siyasət, atılan addımlar bütün sosial problemlərin həllini tapacağına, hər bir Azərbaycan vətəndaşının həyatında müsbət dəyişikliklərə səbəb olacağına əminlik yaradıb.

Ölkəmizdə yeni növ koronavirus infeksiyasının genişlənməsinin qarşısının alınması məqsədilə təsdiq etdiyiniz müvafiq preventiv və profilaktik tədbirlər, əhalinin aztəminatlı təbəqəsinin sosial dayanıqlığının təmin edilməsi, o cümlədən pandemiyadan əziyyət çəkən sahibkarlara maliyyə dəstəyi verilməsi, insanları sosial həmrəyliyə dəvət etməyiniz dövlət-vətəndaş birliyini əks etdirən əsas amillərdəndir. Sizin vətəndaşların sağlamlığını düşünərək koronavirusla mübarizə sahəsində atdığınız qətiyyətli addımlarınızı, gördüyünüz işləri mütəmadi izləyir və təqdir edirik. Rəhbərliyiniz nəticəsində vaxtında görülmüş tədbirlərin müsbət nəticəsidir ki, Azərbaycan koronavirusa qarşı qabaqlayıcı tədbirlər görən ölkələr arasında öncüllərdəndir. Artıq neçə vaxtdır ki, Azərbaycan da COVID-19 infeksiyasına qarşı mübarizə aparır. Müsbət haldır ki, ölkəmizdə milli həmrəylik xeyli dərəcədə artıb. Bu, bir daha Sizin müdrikliyinizi və xalqın Sizə olan sarsılmaz inamını göstərir.

Cənab Prezident, inanırıq ki, gördüyünüz işlər və Azərbaycan xalqının Sizin ətrafınızda sıx birləşməsi hesabına bu pandemiyanın ölkəmizdə geniş yayılmasının qarşısı tezliklə alınacaq və biz, İnşallah bu bəladan az itkilərlə çıxacağıq. Sizə vətəndaşlara sahib çıxdığınız üçün sonsuz təşəkkür edirik. Bu çətin və məsuliyyətli fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar, cansağlığı, uzun ömür arzulayırıq. Allah Sizi, Mehriban xanımı və övladlarınızı qorusun. Amin".

## ABŞ Azərbaycanlılar Şəbəkəsi Amerika ictimaiyyətini erməni təcavüzü barədə məlumatlandırma kampaniyası keçirir

***ABŞ Azərbaycanlılar Şəbəkəsi Amerika ictimaiyyətini erməni təcavüzü və Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni yollar tikintisi barədə məlumatlandırma kampaniyasına başlayıb.***



AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Amerika qanunvericilərinə, Tramp administrasiyasına və kütləvi informasiya vasitələrinə müraciət göndərilib. Müraciətdə deyilir ki, Ermənistan sülh danışıqlarını pozmaqda davam edir və beynəlxalq hüququn əsas prinsiplərinə riayət etmək barədə beynəlxalq birliyin çağırışlarına etinasızlıq göstərir. Qeyd olunur ki, Paşinyan administrasiyası bu yaxınlarda Ermənistanı Azərbaycanın işğal edilmiş əraziləri ilə birləşdirən üçüncü (işğal edilmiş Laçın və Kəlbəcərə çəkilmiş yollardan sonra) yol çəkiləcəyini elan edib. Ermənistanın hakimiyyət orqanları işğal altında olan Qubadlı və Cəbrayıldan keçməklə Qafanı işğal altında olan Hadrut şəhəri ilə birləşdirmək niyyətindədirlər.

Məktubda qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və Azərbaycan ərazisinin beşdəbir hissəsini işğal etməsi faktı özlüyündə beynəlxalq hüququn əsas prinsiplərinin ciddi pozuntusudur. Lakin 1994-cü ildən bəri Ermənistanın qanunsuz yolla əldə etdiyi ərazilərin konsolidasiyası üçün törətdiyi əməllər müharibə dövründə və müharibədən sonra humanitar davranış baxımından beynəlxalq hüquq standartları barədə digər fundamental konvensiyalara da ziddir. 25 ildən artıq müddətdə rəsmi Yerevan diaspordan olan etnik erməniləri cəlb etmək və erməni mənşəli Suriya qaçqınlarını yerli azərbaycanlılardan təmizlənmiş torpaqlara köçürmək yolu ilə yerli azərbaycanlılardan təmizlənmiş işğal altında olan rayonları məskunlaşdırmağa çalışır.

# Əli Əhmədov: "Xalqın rəyi nəzərə alınmadan İrəvanın ermənilərə verilməsi həmin qərarı verənlərin tarixi məsuliyyətini qat-qat artırır"



"Tariximizin şərəfli səhifələrinin yazıldığı dövrlərdə Azərbaycanın tarixinə qara ləkə kimi daxil olmuş hadisələr də baş verdi ki, bunun da araşdırılması və düzgün tarixi qiymətin verilməsi böyük əhəmiyyət kəsb edir". Bu fikirləri Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu gün Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "İrəvan tarixi Azərbaycan şəhəri" mövzusunda keçirilən videokonfransda deyib.

Əli Əhmədov bildirib ki, həmin hadisələrdən biri 1918-ci ilin may ayında İrəvan şəhərinin və onun ətrafındakı torpaqların ermənilərə təhvil verilməsidir. Onun sözlərinə görə, hər bir xalqın tarixində ən faciəli səhifələr onun torpaqlarının itirilməsi ilə əlaqədardır. Təbii ki, Azərbaycan xalqı da istisna deyil. Torpağın başqasına bağışlanması xalq qarşısında böyük qəbahət və günahlardan biridir.

Əli Əhmədov deyib ki, tarixi Azərbaycan şəhəri olan İrəvanın ermənilərə verilməsi kimlərsə tərəfindən əsaslandırılmağa çalışılsa da, buna bəraət qazandırmaq mümkün deyil. Xüsusilə də, bu addımın xalqın rəyi olmadan həyata keçirilməsi səbəbkarların günahını qat-qat artırır. Xalqın sahibi olduğu torpaqla əlaqədar qərar qəbul olunmasının yeganə subyekti xalq olmalıdır. Təəssüf ki, 1918-ci ilin may ayında İrəvan və onun ətrafında torpaqların ermənilərə verilməsində bu torpaqların sahibi olan Azərbaycan xalqı ilə hər hansı məsləhətləşmələr aparılmasına ehtiyac duyulmayıb. Xalqın rəyi nəzərə alınmadan İrəvan ermənilərə təhvil verilib. Bu, həmin qərarı verənlərin tarixi məsuliyyətini qat-qat artırır. Həmin qərar nəticəsində həmin torpaqların sahibləri tamamilə başqa tale yaşamağa məhkum oldu. Bir günün içində İrəvan başqalarına verildi. Hansı ki, o şəhəri həmin insanların babaları tikmişdilər. Şəhərin ermənilərə verilməsi ilə onlar acınacaqlı tale yaşamalı oldular.

Əli Əhmədovun sözlərinə görə, İrəvanın ermənilərə verilməsi nəticəsində azərbaycanlıların etnik təmizlənməsinin əsası qoyuldu: "Çox qısa müddət ərzində çoxluq təşkil edən azərbaycanlıların sıxışdırılıb çıxarılması nəticəsində İrəvanın etnik tərkibi dəyişdirilib. Müəyyən müddət keçəndən sonra azərbaycanlılar özlərinin tikdiyi şəhərlə vidalaşmalı oldular. Təkcə İrəvan sakinləri yox, Qərbi Azərbaycanlıların hamısı etnik təmizləməyə məruz qaldı. 70-80 il ərzində bütün azərbaycanlılar həmin torpaqlardan çıxarıldı. Buna görə də, Prezident İlham Əliyev dəfələrlə indiki Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradıldığını bəyan edib. O cümlədən, Ermənistanın paytaxtının Azərbaycanın tarixi şəhəri olduğunu vurğulayıb. Prezidentimiz bu fikirləri dəfələrlə səsləndirməklə Azərbaycan alimləri, tarixçiləri qarşısında Azərbaycanın tarixinin şərəfli məqamları ilə yanaşı taleyimizdə müsbət izlər buraxmayan məqamların da araşdırılmasını vəzifə kimi qarşıya qoyub. İnanırıq ki, cənab Prezidentin qarşıya qoyduğu məsələlər daha ciddi şəkildə araşdırılacaq. Çünki tarixini yaxşı bilməyən xalq öz tarixinə sahib çıxa bilməz".

# Pensiya təminatı sistemində köklü dəyişikliklər gözlənilir



Sosial təminat sistemində aparılan islahatların mühüm bir istiqaməti bu sistemin, xüsusilə pensiya təminatı sisteminin təkmil və həssas qruplara münasibətdə daha humanist yanaşmalar üzərində qurulması, eyni zamanda bu sahədə proaktiv xidmətlərin dairəsinin genişləndirilməsidir. Bu sözləri Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev pensiya, müavinət və təqaüd məsələləri ilə bağlı işçi qrupunun videokonfrans formatında keçirilən iclasında bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısının təzahürü olaraq, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm addımlar atıldığını qeyd edərək bildirib ki, sosial ödənişlərin məbləği mütəmadi artırılır, eyni zamanda, sosial təminatda humanistləşdirmə, sosial təminata əlçatanlığın artırılması prosesi özünü göstərir. Məsələn, ötən il əmək pensiyası yaşına çatan və fərdi hesabında ən kiçik məbləğdə belə pensiya kapitalı qeydə alınan şəxslərə əmək pensiyası hüququ verildi. 2020-ci ilin əvvəlindən ailəyə ailə başçısını itirməyə görə əmək pensiyasını və ya sosial müavinəti seçmək hüququ verilib. Həmçinin bu ilin əvvəlindən uşaqlar həm sağlamlıq imkanları məhdudluğa, həm də ailə başçısını itirməyə görə hər iki müavinəti alırlar, pensiya yaşına çatan, lakin pensiya hüququ yaranmayanlar həmin an da yaşa görə müavinətlə təmin edilirlər və s.

S.Babayev bildirib ki, bu kimi təkmil və humanist yanaşmaların tətbiqi davam edəcək. Ümumilikdə hazırda pensiya təminatı sistemində bir çox mühüm dəyişiklikləri əks etdirən layihə hazırlanır.

Nazir diqqətə çatdırıb ki, sosial təminat növləri üzrə yeni e-təyinat sistemlərinin hazırlanması prosesi də davam edir. Bu ilin sonunadək daha 3 təqaüd və 3 müavinət növünün elektronlaşdırılması nəzərdə tutulub. Hərbi qulluqçular və xüsusi rütbəli şəxslərə pensiya təyinatının elektronlaşdırılması istiqamətində işlər aparılır. Bununla bağlı məlumat vərəqələrinin elektron forması hazırlanaraq test edilib. Ümumən, əsas hədəf budur ki, sosial təminat sahəsində proaktiv xidmətlərin əhatə dairəsi getdikcə genişlənsin.

## Avqust ayının 1-nə qədər dövlət sərhədləri bağlı qalacaq



"Bakı-Naxçıvan reysində test nəticələrinin gecikməsi ilə bağlı məsələ araşdırılacaq. Avqustun 1-nə qədər xüsusi karantin rejiminin uzadılması məsələsinə daha sonra da baxıla bilər. Sabah bu haqda ətraflı məlumat veriləcək". Bunu Operativ Qərargahın keçirdiyi brifinqdə TƏBİB-ib sədri Ramin Bayramlı deyib.

R.Bayramlının sözlərinə görə, Leyla Abdullayeva ələvə edib ki, avqust ayının 1-nə qədər ölkə sərhədlərinin qapalı qalması da gündəmdədir. İkitərəfli razılaşmalar əsasında çarter reyslərinin də həyata keçirilməsi davam etdiriləcək".

# DSX: Azərbaycan-İran sərhədində silahlı insident olub

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsi sahəsində qətiyyətli tədbirləri davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, iyunun 17-də saat 21:40 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Cəlilabad rayonunun Kürünc kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində üç nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkarlanıb. Sərhəd pozucularının silah və gecəgörmə cihazları ilə silahlanması, onlardan birinin üzərində içərisində narkotik vasitə olması ehtimal edilən böyük bir kisədə yük müşahidə edilib.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb, İran İslam Respublikası sərhədçiləri hadisə haqqında məlumatlandırılıb. Sərhəd naryadı tərəfindən "Dayan!" əmri verilərək havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmayıb, sərhəd naryadına qarşı avtomat silahdan və "Vinçester" tipli tüfəngdən atəş açaraq sərhədçilərin həyatına qəsd ediblər.

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunun tələblərinə uyğun olaraq, sərhəd naryadı tərəfindən silah tətbiq edilib. Sərhəd pozucularından biri güllə yarası alıb və İran ərazisinə qaçmaq məqsədilə sərhəd çayı olan Bolqarçayı keçərkən suda ölüb. Sərhəd pozucusunun cəsədi İran sərhədçiləri tərəfindən sudan çıxarılıb. Digər sərhəd pozucuları ərazinin sıx meşəlik, hava şəraitinin qaranlıq olmasından istifadə edərək geri qaçıb və İran sərhədçiləri tərəfindən öz ərazilərində saxlanılıblar.

Hadisə yerində Azərbaycan və İran sərhəd nümayəndələrinin görüşü keçirilib. Hazırda Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin və Lənkəran Hərbi Prokurorluğunun əməkdaşları hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirirlər.

# YAP Nəsimi rayon təşkilatı növbəti videokonfrans keçirib



Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı koronovirus pandemiyasını nəzərə alaraq tədbirlər planının əksəriyyətini videokonfranslar vasitəsi ilə keçirir. SİA-nın verdiyi məlumata görə, rayon təşkilatı öncədən hazırlanmış qrafik əsasında bir neçə gündür ki, Nəsimi rayon üzrə fəaliyyət göstərən ərazi ilk partiya təşkilatlarının üzvlərinin iştirakı ilə videokonfranslar keçirib. Videokonfransda müzakirə edilən əsas mövzular YAP üzvlərinin koronovirusla mübarizədə rolu, məsuliyyəti və vəzifələri, eləcə də koronovirus pandemiyası dövründə rayon təşkilatının fəaliyyətini əhatə edir.

Növbəti videokonfrans da YAP Nəsimi rayon təşkilatının üç ərazi ilk partiya təşkilatı ilə keçirilib. Hər üç videokonfransı YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı aparıb. MİDA, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Maliyyə Nazirliyi üzrə ərazi ilk partiya təşkilatlarının üzvləri videokonfransda önəmli təkliflərlə çıxış ediblər. Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı koronavirus pandemiyası dövründə YAP Nəsimi rayon təşkilatının məsuliyyəti və vəzifələrindən geniş danışıb.

# Ramin Bayramlı: Yeganə ümid virusun öz-özünə mutasiyaya uğramasınadır




Xəstəliyin qarşısının qəti şəkildə alınması karantin rejiminin tətbiqi ilə mümkün olmayacaq. Xəstəliyin yox edilməsinin bir yolu var ki, o da xəstəlik əleyhinə peyvəndin tapılması və ya dərman müalicəsinin müəyyən olunmasıdır. Bu gün bunların heç biri yoxdur!

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

Onun sözlərinə görə, heç bir dövlətdə vaksinlərin alınması sahəsində axtarışlar ciddi nəticə verməyib: "10-a yaxın mərkəzdə aparılan tədqiqatlar daha ciddi təsir bağışlayır, hətta 2 mərkəzdə aparılan tədqiqatlar artıq 3-cü mərhələyə keçib. Ancaq onların hansı səmərə verəcəyi böyük sual altındadır. Hətta mütəxəssislər bildirirlər ki, vaksin tapılsa belə COVID-19 peyvəndinin səmərəsi ola bilsin, beş-altı aylıq olsun, sonra növbəti peyvəndlərə ehtiyac yaranısn. Yəni hər il yeni çıxacaq ştamlara görə ehtiyac və zərurət yarana bilər. Burada yeganə ümid ondadır ki, bəlkə virus öz-özünə mutasiyaya uğrasın və həyatımızdan tamamilə çıxsın. Lakin buna ümid çox azdır. Buna arxayın olub yaşasaq, böyük faciələrlə üzləşə bilərik".

# YAP İcra Katibliyində “İrəvan tarixi Azərbaycan şəhəri” mövzusunda videkonfrans keçirilib

***İyunun 18-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində “İrəvan tarixi Azərbaycan şəhəri” mövzusunda videkonfrans keçirilib.***

Konfransda çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Prezident İlham Əliyev bu yaxınlarda Tərtər rayonunda səfərdə olarkən Azərbaycan tarixinə dair çox əhəmiyyətli bəyanatlar verib. Onun sözlərinə görə, həmin bəyanat mühüm önəm kəsb edir. Çünki hər bir xalqın nümayəndəsinin öz xalqının tarixini bilməsi çox vacib amildir. Heç bir insan xalqının tarixini bilmədən öz tarixinə sahib çıxa bilməz.

Əli Əhmədov qeyd edib ki, Azərbaycan xalqının tarixinin çox böyük, möhtəşəm parlaq səhifələri yanaşı, qara ləkələri də mövcud olub: “ Bu, bütün xalqlar üçün xarakterikdir. Onların öyrənilməsi xalqın keçmişi və gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan xalqının son 100 illik tarixində möhtəşəm hadisələrdən biri 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin qurulması sayılmalıdır. Qısa müddətdə AXC o dövr üçün və gələcək taleyimiz üçün mühüm addımlar ata bilib. Hər şeydən əvvəl Azərbaycanın dövlət müstəqilliyinin elan olunması və müstəqillik məfkurəsinin formalaşması üçün AXC tarixi addımlar ata bildi. Bunun nəticəsində də, qısa müddət yaşamasına baxmayaraq, onun səpdiyi toxumlar təxminən 70 ildən sonra cücərdi. Və Azərbaycan 1991-ci ildə növbəti dəfə dövlət müstəqilliyini elan etdi. Beləliklə də, müstəqilliyimizin elan olunmasında Xalq Cümhuriyyətinin və qurucularının ideyaları öz tarixini rolunu oynadı. Bu gün müasir Azərbaycan Respublikası özünü AXC-nin varisi hesab edir. AXC-nin yerinə yetirə bilmədiyi işləri bu gün dövlətimiz uğurla həyata keçirməkdədir. Bu, Azərbaycan dövlətinin və vətəndaşlarının Xalq Cümhuriyyətinə, onun qurucularının tarixi xidmətlərinə böyük hörmətinin təzahürüdür. Eyni zamanda, tariximizin şərəfli səhifələrinin yazıldığı dövrlərdə Azərbaycanın tarixinə qara ləkə kimi daxil olmuş hadisələr də baş verdi ki, bunun da araşdırılması və düzgün tarixi qiymətin verilməsi böyük əhəmiyyət kəsb edir”.



YAP Sədrinin müavini söyləyib ki, həmin hadisələrdən biri 1918-ci ilin may ayında İrəvan şəhərinin və onun ətrafındakı torpaqların ermənilərə təhvil verilməsidir. Onun sözlərinə görə, hər bir xalqın tarixində ən faciəli səhifələr onun torpaqlarının itirilməsi ilə əlaqədardır. Təbii ki, Azərbaycan xalqı da istisna deyil. Torpağın başqasına bağışlanması xalq qarşısında böyük qəbahət və günahlardan biridir.





Əli Əhmədov deyib ki, tarixi Azərbaycan şəhəri olan İrəvanın ermənilərə verilməsi kimlərsə tərəfindən əsaslandırılmağa çalışılsa da, buna bəraət qazandırmaq mümkün deyil. Xüsusilə də, bu addımın xalqın rəyi olmadan həyata keçirilməsi səbəbkarların günahını qat-qat artırır. Xalqın sahibi olduğu torpaqla əlaqədar qərar qəbul olunmasının yeganə subyekti xalq olmalıdır. Təəssüf ki, 1918-ci ilin may ayında İrəvan və onun ətrafında torpaqların ermənilərə verilməsində bu torpaqların sahibi olan Azərbaycan xalqı ilə hər hansı məsləhətləşmələr aparılmasına ehtiyac duyulmayıb. Xalqın rəyi nəzərə alınmadan İrəvan ermənilərə təhvil verilib. Bu, həmin qərarı verənlərin tarixi məsuliyyətini qat-qat artırır. Həmin qərar nəticəsində həmin torpaqların sahibləri tamamilə başqa tale yaşamağa məhkum oldu. Bir günün içində İrəvan başqalarına verildi. Hansı ki, o şəhəri həmin insanların babaları tikmişdilər. Şəhərin ermənilərə verilməsi ilə onlar acınacaqlı tale yaşamalı oldular.



Əli Əhmədovun sözlərinə görə, İrəvanın ermənilərə verilməsi nəticəsində azərbaycanlıların etnik təmizləməsinin əsası qoyuldu: “Çox qısa müddət ərzində çoxluq təşkil edən azərbaycanlıların sıxışdırılıb çıxarılması nəticəsində İrəvanın etnik tərkibi dəyişdirilib. Müəyyən müddət keçəndən sonra azərbaycanlılar özlərinin tikdiyi şəhərlə vidalaşmalı oldular. Təkcə İrəvan sakinləri yox, Qərbi Azərbaycanlıların hamısı etnik təmizləməyə məruz qaldı. 70-80 il ərzində bütün azərbaycanlılar həmin torpaqlardan çıxarıldı. Buna görə də, Prezident İlham Əliyev dəfələrlə indiki Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradıldığını bəyan edib. O cümlədən, Ermənistanın paytaxtının Azərbaycanın tarixi şəhəri olduğunu vuirğulayıb. Prezidentimiz bu fikirləri dəfələrlə səsləndirməklə Azərbaycan alimləri, tarixçiləri qarşısında da Azərbaycanın tarixinin şərəfli məqamları ilə yanaşı taleyimizdə müsbət izlər buraxmayan məqamların araşdırılmasını vəzifə kimi qarşıya qoyub. İnanırıq ki, cənab Prezidentin qarşıya qoyduğu məsələlər daha ciddi şəkildə araşdırılacaq. Çünki tarixini yaxşı bimeyən xalq öz tarixinə sahib çıxa bilməz”.

Çıxış edən AMEA-nın birinci vitse-prezidenti, Milli Məclisin deputatı İsa Həbibbəyli bildirib ki, bu mövzu dərin elmi-tədqiqat mövzuus olmaqla yanaşı, böyük siyasi-ideoloji məna kəsb edir. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı tarixi reallıqları əks etdirir. Akademik deyib ki, tarixən Azərbaycan xalqına məxsus olan indiki Ermənistan torpaqlarında heç zaman erməni adında toponim olmayıb. Ermənilər sonradan bu torpaqlara köçürülüblər. İ.Həbibbəyli 1881-ci ildə İrəvan şəhərinə aid bir sənədi təqdim edərək qeyd edib ki, həmin sənəddə ruslar tərəfindən İrəvanın məhəllələrinin adı əks olunub. Həmin sənəddə yalnız bir erməni məhəlləsinin adı çəkilir. O da İrəvanın mərkəzində deyil, onun kənarındadır.

AMEA-nın birinci vitse-prezidenti akademiyanın müvafiq institutları tərəfindən bu istiqamətdə görülmüş işlər və nəzərdə tutlan layihələr haqqında da ətraflı məlumat verib.

Videokonfransda həmçinin Milli Məclisin deputatı, tarix elmlər doktoru Anar İsgəndərov, Milli Məclisin deputatı, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli və AMEA-nın Tarix İnstitutunun əməkdaşı Nazim Mustafa mövzu ilə bağlı çıxış edərək tarixi faktları tədbir iştuirakçılarının diqqətinə çatdırıblar. Qeyd olunub ki, 1805-ci ildə çar Rusiyası ilə Qarabağ xanlığı arasında imzalanmış Kürəkçay müqaviləsi erməni iddialarını darmadağın edir. Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilər tarixi torpaqlarımıza, o cümlədən İrəvana köçürülüblər.

Qeyd olunub ki, 1918-ci ilin may ayında İrəvanın ermənilərə verilməsi tarixi səhv olmaqla yanaşı gələcək faciələrin də əsasını qoyub. Məhz həmin dövrdən ermənilərin torpaq iddiaları daha da artıb. Natiqlər qeyd ediblər ki, Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı tarixçi alimlər qarşısında ciddi vəzifələr qoyur. Alimlər o dövrü geniş araşdırmaqla, bundan sonra da ciddi elmi əsərlər ortaya qoymaqla dünya miqyasında erməni yalanlarına tutarlı cavablar vermiş olacaqlar.

## Azərbaycanın ASEAN-dakı səfiri etimadnaməsini təşkilatın Baş katibinə təqdim edib

***İyunun 18-də Azərbaycanın İndoneziyadakı səfiri Cəlal Mirzəyev ölkəmizin Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasında (ASEAN) səfiri təyin edilməsi ilə bağlı etimadnaməsini ASEAN-ın Baş katibi Lim Jock Hoiyə təqdim edib.***



AZƏRTAC xəbər verir ki, Azərbaycan səfirinin etimadnaməsini qəbul edən L.J.Hoi ona ASEAN çərçivəsində fəaliyyətində uğurlar diləyib.

Cəlal Mirzəyev, ilk növbədə, ölkə rəhbərliyinin salamlarını və xoş arzularını Baş katibə çatdıraraq, Azərbaycanın ASEAN-la münasibətlərin inkişafına marağını ifadə edib. Görüş zamanı həmin təşkilatla Azərbaycan arasında mümkün əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Baş katib ASEAN-ın regionda siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin inkişaf etdirilməsində mühüm işlər gördüyünü qeyd edib, bu istiqamətdə təşkilatın fəaliyyətində dinamikanın artırılmasına xüsusi diqqət yetirildiyini bildirib.

Lim Jock Hoi hazırda bütün dünyanı bürüyən COVID-19 pandemiyası ilə bağlı görülən işlərdən danışıb. Bu istiqamətdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə cari il mayın 4-də keçirilmiş onlayn-sammitin işini yaxından izlədiklərini və yüksək qiymətləndirdiklərini vurğulayıb. COVID-19-a qarşı beynəlxalq müstəvidə aparılan mübarizədə Azərbaycanın liderlik fəaliyyətinin təqdirəlayiq olduğunu bildirib. Görüşdə, eyni zamanda, tərəflər arasında Cənub-Şərqi Asiya regionunda baş verən siyasi proseslər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# İtaliya mətbuatı Avropa Parlamentinin Azərbaycanın işğal edilmiş ərazilərini Ermənistanla birləşdirən magistral yolun inşasına etirazından yazır

***İtaliyanın "Notiziegeopolitiche" və "Eurasianews" analitik xəbər portallarında Roma Sapienza Universitetinin Avropa tarixi üzrə tədqiqatçısı Dariuş Rahiminianın Avropa Parlamentinin üzvlərinin Ermənistanı Azərbaycanın işğal edilmiş əraziləri ilə birləşdirəcək yeni magistral yolun tikintisi ilə bağlı yaydıqları bəyanat və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, işğal olunmuş ərazilərimizdəki qeyri-qanuni fəaliyyətinə dair məqalələri dərc olunub.***




AZƏRTAC xəbər verir ki, məqalələrdə Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsini Qafan rayonu ilə birləşdirəcək magistral yolun inşasına dair xəbərin Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən ötən il açıqlandığı, həmin yolun Qubadlı və Cəbrayıldan keçməsinin planlaşdırıldığı bildirilib. Habelə son günlərdə Dağlıq Qarabağ bölgəsindəki qeyri-qanuni separatçı rejimin rəhbəri Araik Harutyunyanın Azərbaycanın işğal olunmuş Zəngilan rayonuna səfəri zamanı Ermənistandan Azərbaycanın işğal olunmuş ərazilərinə gedən üçüncü magistral yolun inşası üçün hazırlıq işlərinin getdiyinə dair bəyanat verdiyi də qeyd olunub.

Məqalələrdə sözügedən layihənin təfərrüatlarını öyrəndikdən sonra Avropa Parlamentinin (AP) Cənubi Qafqazdakı proseslərə daha yaxından cəlb olunan üç üzvü - Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Traian Basesku və AP-nin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurandın bu təxribatı qınayan birgə bəyanatı da qeyd olunub. Bəyanatda deyilir ki, işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarından keçərək Ermənistandakı Qafan rayonunu işğal altında olan Dağlıq Qarabağın Hadrut rayonu ilə birləşdirəcək bu magistralın inşası qərarı Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan alınıb və beynəlxalq hüququ pozub. Müraciətdə bu addımın Dağlıq Qarabağın və ətraf rayonların qanunsuz işğalını təsdiq edəcəyini, buna görə də bu təşəbbüsün etimad, sülh və barışıq üçün mühit yaratmağa kömək etmədiyini və ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərinə və onların 2009-cu ildə təsdiqlənən Əsas Prinsiplərinə dəstəklərini bəyan edərək bu vasitəçiliyin uğur qazanması üçün Ermənistan və Azərbaycan hökumətlərini Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində münaqişənin sülh yolu ilə həllinə dair danışıqlarda öz öhdəliklərini gücləndirməyə çağırış etdikləri qeyd olunub.

Müəllif, eləcə də 1992-ci ildən etibarən Ermənistan tərəfindən işğal edilmiş ərazilərin bütün beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan Respublikasının bir hissəsi kimi tanındığını xatırladıb. O, BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının qətnamələrinin Dağlıq Qarabağ bölgəsini ətraf rayonlarla birlikdə Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq etdiyini, Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti ifadə etdiyini, Azərbaycan ərazilərinin işğalını pislədiyini və Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini bildirib. Müəllifin fikrincə, AP üzvlərinin bəyanatı göstərir ki, Avropa Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həllini süni şəkildə uzatmaq və status-kvonu qorumaq cəhdlərinin zərərli təsirlərini başa düşür və Ermənistan rəhbərliyini təxribatçı ifadələrdən çəkinməyə və Azərbaycanla konstruktiv dialoqa başlamağa çağırır.

Sözügedən üçüncü yolun inşasının Azərbaycanın işğal olunmuş ərazilərindəki təbii sərvətlərin daha da təcavüzkar bir səviyyədə talan edilməsinə hədəfləndiyi də məqalədə əksini tapıb. Qeyd edilib ki, Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyət haqqında ətraflı məlumatları Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabatından və "Azərkosmos" ASC ilə birlikdə hazırladığı və Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qanunsuz fəaliyyətin peykdən çəkilmiş təsvirlərini əks etdirən hesabatlardan əldə etmək, təbii ehtiyatların istismarı, bölgənin infrastrukturundakı dəyişiklikləri, suvarma sistemlərinin inşasını və kənd təsərrüfatı işlərini açıq şəkildə görmək mümkündür. Müəllif beynəlxalq qurumların bu problemə dəfələrlə geniş yer verdiyini bildirərək bu xüsusda İsrail beyin mərkəzi Kohelet Policy Forumunun iki hesabatında beynəlxalq şirkətlərin bu ərazilərdəki qanunsuz iqtisadi fəaliyyətlərinə və Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində qanunsuz məskunlaşmalara xüsusi diqqət yetirdiyini xatırladıb. Habelə müəllif ingilis tədqiqatçı Harold Kanenin "Narko Qarabağ" adlı kitabına istinad edərək orada ələ keçirilən torpaqların insan alveri, silah, narkotik və çirkli pulların yuyulması üçün fəal istifadəsindən bəhs edildiyini diqqətə çatdırıb və "üçüncü yolun" əslində nəyə xidmət edəcəyini vurğulayıb. Müəllif bildirib ki, Ermənistanın daha geniş miqyasda qarşıya qoyduğu məqsəd hərbi işğala əsaslanan status-kvonu möhkəmləndirmək, münaqişənin sülh yolu ilə həllini pozmaq və Azərbaycanın işğal olunmuş ərazilərini ilhaq etmək istəyidir.

Yazıda Avropa Parlamentinin nümayəndələrinin bəyanatının Ermənistanda böyük narazılığa səbəb olduğu, Ermənistanın ombudsmanı, insan hüquqları müdafiəçisi Larisa Alaverdyanın bu sənədi "Ermənistan parlament diplomatiyasının tam iflası", analitik Karen Bekaryanın isə bu hadisəni "Ermənistanın xarici siyasətinin Avropa və parlament diplomatiyasına münasibətdə rüsvayçı uğursuzluğu" kimi qələmə verdiyi bildirilib. Beynəlxalq ictimaiyyətin artıq təcavüzə biganə qalmadığını, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına daha adekvat cavab verdiyini vurğulayan müəllif, bu xüsusda son olaraq Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər"in birmənalı olaraq tanınmamasını xatırladıb. O bildirib ki, çoxsaylı dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən verilən bəyanatlarda qondarma "seçkilər"in heç bir hüquqi əsasının olmadığı, Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurası qətnamələri əsasında həllinin mümkün olduğu və Azərbaycanın Qarabağ bölgəsində istənilən seçkinin yalnız Azərbaycan Respublikasının Konstitusiyasına əsasən keçirilə biləcəyi qeyd edilib. Bu xüsusda, müəllif sözügedən dövlətlər arasında İtaliyanın da olduğunu bildirib və İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkiləri" tanımadığı ilə bağlı açıqlamasını xatırladıb.

İtaliyanın belə bir mövqeyinin Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış, Azərbaycan və İtaliya münasibətləri tarixində ən yüksək səviyyəli siyasi sənəd olan "Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə"yə uyğun olduğunu vurğulayan müəllif əlavə edir ki, bu sənəddə tərəflər bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyini, dövlətlərarası münasibətlərdə təcavüz aktlarının yolverilməzliyini təsdiq edir. Eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının təməl prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında, BMT və ATƏT-in müvafiq sənəd və qərarlarında təsbit olunduğu kimi sülh yolu ilə nizamlanmasını dəstəkləyir.

Bildirilir ki, Avropa parlamentarlarının bəyanatı Avropa İttifaqının Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı siyasəti ilə bağlı mayın 11-də qəbul etdiyi yekun qərarı ilə tam uyğunluq təşkil edir. Belə ki, Azərbaycanın da iştirakçısı olduğu Şərq Tərəfdaşlığı ölkələrinə münasibətdə Avropa İttifaqının siyasətinin əsas parametrlərini müəyyənləşdirən həmin yekun qərar Helsinki Yekun Aktının və ATƏT-in Paris Nizamnaməsinin prinsiplərində də qeyd olunduğu kimi, ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalar kimi ortaq öhdəlikləri təsdiq edir.

Beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana göstərilən bu əhəmiyyətli dəstəyi əsas tutaraq ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Ermənistanı beynəlxalq sülhə hörmət etməyə məcbur etməli olduğunu bildirən müəllif, eyni zamanda, BMT Nizamnaməsindən 51-ci maddəsindən irəli gələrək Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün hərbi güc də daxil olmaqla bütün vasitələrdən istifadə etmək hüququnu həmişə özündə saxladığını qeyd edir. Məqalələrə keçid aşağıdakı linklər vasitəsilə mümkündür:

https://www.eurasianews.it/-2020/06/17/parlamento-europeo-dice-no-allautostrada-armenia-territori-occupati-dellazerbaigian/

https://www.notiziegeopolitiche.net/nagorno-karabakh-stop-del-parlamento-europeo-allautostrada-armena/ .

---

***"Azərbaycan böyük şirkətlərlə qarşılıqlı faydalılıq əsasında əməkdaşlığını genişləndirir. Bir müddət öncə də Cənab İlham Əliyev alternativ enerji ilə bağlı böyük şirkətlərin rəhbərləri ilə, eləcə də tenderdə qalib gələn iki Ərəb şirkətinin rəhbəri ilə də görüşmüşdü.***

# "Azərbaycanla əməkdaşlıq şirkətlərin özləri üçün də vacibdir"



Azərbaycan alternativ enerjinin inkişafında maraqlıdır və yaxın 10-20 ildə neft və qaz istifadəsindən alternativ enerjiyə də keçə bilərik ki, bu iqtisadiyyatımız üçün də gərəklidir." Bu sözləri SİA-ya açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib.

Mərkəzin rəhbəri vurğulayıb ki, Azərbaycanla əməkdaşlıq həmin şirkətlərin özləri üçün də vacibdir. "Götürək, son videokonfrans formatında olan "Microsoft" şirkəti ilə əməkdaşlıq imkanlarını. Bu da qarşılıqlı faydalılıq əsasında qurulmuş əlaqələrdir. Azərbaycan dünyanın aparıcı şirkəti olan "Microsoft" şirkəti ilə əməkdaşlığını genişləndirməkdə və Azərbaycan bazarına cəlb etməkdə maraqlıdır. "Microsoft" şirkəti də, onun rəhbərliyi də öz növbəsində bilir ki, Cənubi Qafqazda əgər mövqe sahibi olmaq istəyirsə, bazarında yer tutmaq istəyirsə ilk növbədə Azərbaycanla əməkdaşlıq etməlidir, çünki, bölgənin əsas açar dövləti elə Azərbaycandır, ən çox Azərbaycanın iqtiadiyyatı inkişaf edib və bazarda özünəməxsus yeri var. Ona görə "Microsoft" şirkətinin özü də digər böyük şirkətlər kimi Cənubi Qafqazda əməkdaşlığı genişləndirmək üçün ilk növbədə Azərbaycanla əməkdaşlığın inkişafı yollarını müzakirə edir. İndiki ağır vəziyyətə, koronavirusla bağlı dünyadakı və bölgədəki çətin duruma baxmayaraq, biz görürük ki, dövlət başçısı videokonfransları bir-birinin ardınca keçirir ki, böyük şirkətlərlə əməkdaşlıq imkanları yenə də üst səviyyədə qalsın və sonrakı dövrdə yeni layihələr reallaşsın", deyə Elxan Şahinoğlu bildirib.

# “Erməni xalqı cinayətkarların əlində oyuncağa çevrilib”

***“E**rmənistanı canilər, kriminallar idarə edir. Ermənistanda hakimiyyət uğrunda gedən mübarizələr hakimiyyətdə olanların və olmaq istəyənlərin keçmişi, keçdikləri yol dəməyə əsas verir ki, ölkəni tamamilə kriminallar, müxtəlif cinayətlərdə əlləri olanlar, xalqı talayanlar idarə edirlər.” Bu sözləri SİA-ya müsahibəsində Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib.*



Komitı sədri xatırladıb ki, Koçaryanın, Sarkisyanın, Paşinyanın, eləcə də yüksək vəzifə tutmuş bir çox Ermənistan rəhbərlərini hakimiyyətə gətirən yolların ilk izləri cinayətdən, insan qətllərindən, zorakılıqdan, zülümdən, oğurluqdan, dələduzluqdan başlayır və bu izlər hakimiyyətin ən yüksək pilləsinə kimi gedib çıxır.

“Fikir verin, Koçaryan, Sarkisyan ağlı kəsən gündən azərbaycanlı, türk qanı tökməyə hazır olduqlarını bəyan edən və faşist əməlləri ilə vəhşi varlıq olduqlarına görə məhz hakimiyyətə gəliblər, ölkə başçısı seçiliblər. Onlar qatı millətçi, cani olmasaydılar, sözsüz ki, kriminal aləm tərəfindən müdafiə edilməz və ölkə rəhbəri ola bilməzdilər. Paşinyan da faşist ideologiyasını dəstəkləməsəydi, faşizmə rəğbət bəsləyib, qan tökmək, zülm etmək yolunu tutmasaydı baş nazir seçilə bilməzdi, cinayətkarlıqdan dəstək alıb rəhbər vəzifəyə yüksəlməzdi.

Baş nazirin bugünkü fəaliyyəti, Ermənistanda yaranmış vəziyyət, kütləvi həbslər, qətllər, qarşıdurmalarla və bu baxımdan xarakterikdir. İndi bu ölkədə cinayətkarlar cinayətkarlığa qarşı mübarizəyə qalxmışlar. Kriminallar arasında mübarizə kəskinləşir. İqtisadi, siyasi böhran dərinləşir. Mübarizə isə erməni xalqının gələcəyi, xöşbəxtliyi uğrunda deyil, vəzifə uğrunda gedir. Xalq adını siyasətçi qoyan millətçi cinayətkarların əlində bir topa çevrilən oluncaqdır. Daha dəqiq desək, erməni xalqı cinayətkarların əlində bir oluncağa çevrilib. Bu, hazırda erməni xalqının guya taleyi, mənafeyi üçün çalışan, canını fəda etməyə hazır olmaq şuarları ilə meydana atılan “Çiçəklənən Ermənistan” partiyasının sədri, milyonçu Qaqik Sarukyanın timsalında da aydın görünür. Faktlar sübut edir ki, Qaqik Sarukyanın da keçmişi ləkəlidir. O, cinsi zorakılığa görə xeyli müddət həbsdə olub, kriminal aləmlə əlaqəlidir. Koçaryana yaxınlığı ilə seçilir və onun hakimiyyəti dövründə külli miqdarda vəsait toplayıb, partiya yaradıb, deputat seçilib. Həmçinin bir çox insan qətllərinin, həbslərin, zorakılığın təşkilatçısı olub. Belə bir adam bu gün Paşinyan hakimiyyətinə qarşı çıxaraq xalqın tərəfində olduğunu bəyan etməklə, əslində xaqı yox, özünü düşünür, xal yığmaq, vəzifə tutmaq, daha çox varlanmaq niyyətindədir. Paşinyan hakimiyyətinə qarşı çıxdığı üçün deputat səlahiyyətlərinə xitam verilən, həbsi gözlənilən bu insanın milli mənafelərdən, insan haqlarından, demokratiyadan dəm vuraraq insanları kütləvi nümayişlərə səsləməsi onun keçmiş əməlləri qarşısında çox gülünc görünür.

Əlbəttə, Paşinyan millətçidir, faşist ideologiyasına xidmət edir. Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həllində aqressiv mövqe tutur, beynəlxalq hüquq normalarına məhəl qoymur. Xalq fədaisi donu altında erməni xalqını aldadır. Öz hakimiyyətinin ömrünü uzatmaq üçün bütün vasitələrə əl atır, əleyhinə çıxanları həbs etdirir, vəzifədən uzaqlaşdırır, sıxışdırır, ölkədən çıxarır, təqib və təhqirə məruz qoyur. Vaxtilə hakimiyyətə gəlmək üçün demokratiyanı, ədaləti, bərabərliyi əldə şuar edən bu adamın antidemokratik hərəkətləri təbiidir. Çünki, o hakimiyyətə demokratik yolla deyil, kimlərinsə sifarişi, dəstəyi ilə gəlib və həmin tərəflərion də tapşırıqlarını yerinə yetirməlidir və yetirir də. Hər zaman olduğu kimi Paşinyan üçün xalqın taleyi, mənafeyi, ölkənin gələcəyi, demokratiya, demokratik təsisatların, beynəlxalq təşkilatların guya əsaslandığı ali dəyərlər əsas ola bilməz. Onun üçün havadarlarının mənafeyi maraqlıdır.

Məsələ burasındadır ki, həmin demokratik institutlar, təsisatlar özləri də bu cinayətkar ölkədəki antidemokratik mühiti görməməzliyə vurur. Demokratik ideyalarının, dəyərlərinin Ermənistanda ayaqlar altına atıldığına məhəl də qoymurlar. Nəinki antidemokratik hərəkətlərə, hətta zorakılıqlara, qanunsuzluqara, hər cür əməllərə susqunluq nümayiş etdirir və bununla eyni zamanda bir təşkilat olaraq demokratik dəyərlərə söykəndiyini, ali dəyərlər üzərində qurulduğunu, bu dəyərlərə əsaslandığını şübhə altına alır. Əvəzində, dünya ictimaiyyətinin diqqətini ikili standartlar siyasəti yeritdikləri ilə cəlb edirlər həmin o demokratik təşkilatlar. Bu isə öz növbəsində onların öz nüfuzuna xələl gətirir və bu təsisatlara, institutlara dünya ictimaiyyətinin inamı durmadan itir. Sözsüz ki, Ermənistandakı vəziyyət uzun müddət davam edə bilməz. Baş nazir vəzifədən gedəcək. Ancaq hakimiyyətə kimin gələcəyi çox maraqlıdır. Əgər cinayətkar aləmlə əlaqəsi olan, millətçi mövqeyi tutan bir insan hakimiyyətə gələrsə, bu Ermənistanda vəziyyətin yaxşılaşmasına yox, əksinə, böhranın daha da dərinləşməsinə, yeni fəlakətlərə yol açacaqdır. Erməni xalqı bu barədə çiddi düşünməli, vəziyyətdən çıxış yolu tapmalıdır. Yoxsa, çinayətkarların hakimiyyəti xalqı yeni cinayətlətə aparacaqdır”, deyə Tahir Rzayev bildirib.

# Yanvar-may aylarında Azərbaycana 6691 çeşiddə məhsul gətirilib



Cari ilin yanvar-may aylarında Azərbaycana 6691 çeşiddə məhsul idxal olunub. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.Qeyd edək ki, 5 ayda Azərbaycanda idxal əməliyyatlarının dəyəri 4 milyard 165 milyon ABŞ dolları olub.

# Əhalinin gəlirləri artıb



İlkin məlumatlara görə, yanvar-may aylarında ölkə əhalisinin nominal gəlirləri 22 milyard 382,1 milyon manat təşkil edib və əvvəlki ilin eyni dövrünə nisbətən 1,3 faiz artıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu dövrdə ölkənin istehlak bazarında qiymətlərin artımı əhalinin gəlirlərinin artımını 1,6 faiz bəndi üstələyib. Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 20 milyard 245,8 milyon manatlıq vəsait qalıb.

## Baş infeksionist: “Ölüm sayı artır, vəziyyət ciddidir”



“Hazırkı şəraitdə tələb edilən yerlərdə və hallarda tibbi maskadan istifadə etməyənlər qınanılmalıdır.” Bunu Azərbaycanın baş infeksionisti Cəlal İsayev Trend-ə açıqlamasında deyib.

Onun sözlərinə görə, hazırda koronavirusiu xəstələr üçün ayrılan xəstəxanalarda vəziyyət gərgindir.

C.İsayev bildirib ki, bu qədər xəbərdarlığın edilməsinə baxmayaraq, insanlar tibbi maskadan istifadə məsələsinə hələ də barmaqarası baxırlar: “Artıq modul tipli xəstəxanalar da fəaliyyətə başlayır. Digər xəstəxanalar da pandemiya xəstəxanalarının sırasına qoşulur, müvafiq tibb müəssisələrində koronavirusiu xəstələr üçün ayrılan şöbələrin sayı artırılıb. Amma həm ağır xəstələrin, həm də xəstəlikdən ölənlərin sayı getdikcə artır. Bu da onu göstərir ki, vəziyyət kifayət qədər ciddidir. Bu vəziyyətin özü vətəndaşlarımıza birbaşa xəbərdarlıq edir ki, məsələyə çox ciddi yanaşmaq lazımdır. Mən bütün vətəndaşlarımıza müraciət edib deyirəm ki, onlar ətraflarında maskasız gəzən insanları görəndə laqeyd qalmasınlar. Desinlər ki, maskasız gəzən insanlar onların həyatlarını təhlükə altına qoyur. Maskasız gəzən insan vəziyyətin ciddiliyini başa düşmür. Ona görə də maskasız gəzən insanlara hamı bir ağızdan deməlidir ki, siz maska taxın. Bu cür xəbərdarlıqlar bəlkə də həmin insanları yola gətirər. Heç olmasa, ətrafdakıların qınağı onlarda məsuliyyət hissini artırar”.

## Çavuşoğludan Almaniyaya: “Ədalətsiz qərardır!”



Almaniyanın Türkiyə ilə bağlı qərarı siyasi və ədalətsizdir. Axar.az xəbər verir ki, bunu Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu deyib. “Tutaq ki, ölkəmizə gələn bir turistin həyat sığortası yoxdur və yaxud cari sığortası xərclərini ödəmir. Türkiyə olaraq qonağımızı müalicə etməyə hazırıq. Almaniyanın bu qərarından məyus oldum”, - XİN rəhbəri bildirib.

Qeyd edək ki, Almaniya 130 ölkəni, o cümlədən Türkiyəni “koronavirus riskli bölgə” siyahısına salıb.

## Magistraturaya qəbul olmaq üçün proqram və ixtisaslaşma seçimin vaxtı uzadıldı



2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq üçün proqram və ixtisaslaşma seçiminin vaxtı 21 iyun saat 23:59-dək uzadılıb. Dövlət İmtahan Mərkəzindən SİA-ya verilən məlumata görə, ixtisaslaşmaları seçib hələ təsdiq etməyən, eləcə də müsabiqədə iştirak etmək istəyən, lakin hələ ixtisaslaşma seçimi etməmiş digər bakalavrlara tövsiyə olunur ki, qeyd olunan müddətdə ərizələrini təsdiq etsinlər. Bundan əlavə, 700-ə yaxın bakalavrın ümumi orta müvəffəqiyyət göstəricisi ali təhsil müəssisələri tərəfindən “Tələbəməzun” dövlət elektron məlumat sisteminə daxil edilməyib. Ali təhsil müəssisələrinin məsul şəxsləri qeyd olunan vaxtadək ÜOMG-ni bazaya daxil etməlidirlər.

Xatırladaq ki, 18 iyun saat 16:00-a olan məlumata əsasən, 10869 bakalavr (Azərbaycan bölməsi üzrə 10073, rus bölməsi üzrə 796) öz ərizəsini təsdiq edib. Müsabiqəyə yalnız 21 iyun saat 23.59-dək “Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi”ndə ixtisaslaşmaları seçmiş və təsdiq etmiş bakalavrlar buraxılacaqlar.

# “Dövlətimiz koronavirus pandemiyası ilə mübarizədə bütün imkanlarını səfərbər edib”

*Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanovun yap.org.az-a müsahibəsi*



***- Əhliman müəllim, hazırda bütün dünya ölkələri koronavirus pandemiyası ilə mübarizəyə səfərbər olunub. Hazırkı mənzərəni necə xarakterizə edərdiniz?***

- Ümumiyyətlə, koronavirus infeksiyası (COVID-19) bütün dünyada yaşayan insanların hər birini narahat edir. Pandemiyanın elan olunmasından bir neçə ay vaxt keçməsinə baxmayaraq, bu gün təəssüflər olsun ki, bu xəstəliyə yoluxma və ölüm göstəriciləri artmaqda davam edir. Dünyada COVID-19-a yoluxanların sayı artıq 8 milyona yaxındır. Bu xəstəlikdən dünyasını dəyişənlər isə 400 min nəfərdən çoxdur. Təəssüflər olsun ki, dünyada genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə baxmayaraq vəziyyəti sabitləşdirmək hələ ki, mümkün olmayıb. Digər xəstəliklərin göstəricilərindən fərqli olaraq, koronavirusun bir neçə xarakterik xüsusiyyəti var. Bunlardan biri bu virusun insanlar arasında son dərəcədə sürətlə yayılma potensialının olmasıdır. İkincisi, bu xəstəliyin inkubasiya dövrünün xeyli uzun olmasıdır. Bu dövr 7-14, hətta 21 günü əhatə edir. Təsəvvür edin ki, xəstəliyə yoluxmuş bir insan 7-14 gün ərzində xəstəliyin əlamətini hiss etmədən insanlar arasında dolaşır və yüzlərlə insanı həmin virusa yoluxdurur. Bu da xəstəliyin artmasında əsas səbəblərindən biridir. Digər bir səbəb isə virusa qarşı spesifik müalicənin və peyvəndin hələ də tapılmamasıdır. Ona görə də, infeksiya ilə kifayət qədər effektli mübarizə apara bilmirik. Bu üç səbəb infeksiyanı kifayət qədər təhlükəli edir.

***- Azərbaycan dövləti də pandemiya ilə çox ciddi mübarizə aparır. Bu barədə nə deyə bilərsiniz?***

- Ölkəmizə gəldikdə, dünyada pandemiyanın elan olunduğu ilk günlərdən möhtərəm Prezidentimiz İlham Əliyevin tapşırığı ilə və Onun nəzarəti altında genişmiqyaslı, kompleks tədbirlər həyata keçirilməyə başlanıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, ciddi karantin rejiminin tətbiq olunması kimi tədbirlər ilk günlərdən həyata keçirilir. Koronavirusla mübarizə üçün 20-dən çox xəstəxana ayrılıb və xəstələrin müalicəsi üçün istifadəyə verilib. Bu xəstəxanalar Bakıda və regionlarda fəaliyyət göstərir, onlar ən müasir avadanıqlarla təmin ediliblər. Bu gün ölkəmizdə həmin xəstəxanaların çarpayı fondu artıq 7 mini keçib. Bunu əgər əhalinin sayına görə müqayisə etsək, dünyada ən yüksək göstəricilərdən biridir. Eləcə də, “Yeni kilinika” və modul tipli xəstəxanaların da tikilib istifadəyə verilməsi bu mübarizədə çox əhəmiyyətlidir.

Hesab edirəm ki, xaricdən gətirilən vətəndaşlarla bağlı Azərbaycan təcrübəsi də dünya üçün nümunədir. Dünyanın heç bir ölkəsi xaricdən gələn vətəndaşlarını dövlət hesabına karantində saxlamır. Onlar ev şəraitində karantində saxlanılır. Amma Azərbaycanda xaricdən gətirilən vətəndaşlar dövlət hesabına müasir standartlara cavab verən otellərdə 7-14 gün karantində saxlanılır.

Digər tərəfdən, bizdə bu xəstələrin müalicə olunması üçün kifayət qədər dərman preparatları xarici ölkələrdən gətirilib. Onların bəziləri Çində, bəziləri Avropa ölkələrində istifadə olunan dərman preparatlarıdır. Ölkəmizdə koronavirus xəstələrinin dərmanla təmin olunmasında heç bir problem yoxdur. Laboratoriyalara gəlincə, ilk günlərdən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərişi ilə ölkəmizdə olan laboratoriyalar moderinizə olundu. İlk vaxtlarda testləşdirmə imkanımız yüksək deyildi. Amma bu gün ölkəmizdə bu istiqamətdə fəaliyyət göstərən laboratoriyaların sayı 20-dən çoxdur. Bu laboratoriyalarda bir gün ərzində 5000-7000 test aparılır. Bu, əhalinin sayı ilə müqayisədə dünyada yüksək göstəricidir.

Digər bir müsbət məqam tibbi maska və digər qoruyucu vasitələrin təminatı ilə bağlıdır. Bilirsiniz ki, ilk günlərdə tibbi maska, digər qoruyucu vasitələr ölkəmizə xaricdən gətirilirdi. Amma qısa vaxt ərzində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə tibbi maska, digər qoruyucu vasitələr istehsal edən müəssisələrin açılışı oldu.

***- Koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycanın təcrübəsi dünyada necə dəyərləndirilir?***

- Əlbəttə ki, dünyada ölkəmizin bu istiqamətdəki təcrübəsi çox yüksək qiymətləndirilir. Bu faktı Ümumdünya Səhiyyə Təşkilatının və digər beynəlxalq təşkilatların məlumatlarında görmək mümkündür. Həqiqətən də, Azərbaycan beynəlxalq səviyyədə pandemiya ilə mübarizəyə böyük töhfələr verir. Bilirsiniz ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu məsələ ilə bağlı Türk Şurasının və Qoşulmama Hərəkatının onlayn formada Zirvə görüşləri keçirilib. Həmin Zirvə görüşlərində möhtərəm Prezidentimiz koronavirus pandemiyası ilə mübarizə məqsədilə dəyərli təkliflər verib. Bütün dünya Prezidentimizin bu təşəbbüsünü çox yüksək qiymətləndirib.

Bundan başqa, Azərbaycan pandemiya ilə mübarizə üçün 30-a yaxın ölkəyə yardım edib. Hansı ki, həmin ölkələrin bu yardıma çox ehtiyacı var. Eləcə də, ölkəmiz tərəfindən Ümumdünya Səhiyyə Təşkilatına ianə köçürülüb.

Bir məsələni də qeyd edim ki, bir çox ölkələrdə həm diaqnostika, həm müalicə heç də dövlətin hesabına həyata keçirilmir. Azərbaycanda isə hər bir xəstə stasionar şəraitdə dövlət hesabına müalicə alır.

***- Həkimlərin fədakarlığı da xüsusi qeyd olunmalıdır...***

- Əlbəttə ki, ölkəmizdə koronavirusla mübarizədə tibb personalımızın əməyini qeyd etmək istəyirəm. Doğrudan da, zaman göstərdi ki, bizim tibb personalımız virusla mübarizədə çox böyük əzmlə mübarizə aparır və yaxşı nəticələrə nail ola bilirik. İndiki şərait göstərdi ki, ölkəmizdə çox yüksək biliklərə sahib, fədakar tibb personalımız var.

***- Əhliman müəllim, bəzi vətəndaşlar koronavirus infeksiyasının nə qədər təhlükəli olduğunu ciddi qəbul etmirlər. Onlara nə tövsiyə edərdiniz?***

- Dövlətimiz, Prezidentimiz hər şey edir ki, koronavirusa qarşı uğurla mübarizə aparaq. Amma son vaxtlar bəzi rəqəmlər bizi narahat edir. Doğrudur, bu göstəricilər bir çox ölkələrlə müqayisədə xeyli yaxşıdır. Buna baxmayaraq, yoluxmanın artması bizi narahat etməyə bilməz. Mütəxəssislərin fikrinə görə, bunun əsas səbəbi karantin rejiminin yumşaldılması, bəzi insanların məsuliyyətsiz davranışlarıdır. Hər bir vətəndaş tibbi maskadan istifadə etməli, gigiyenik qaydalara riayət etməli, sosial məsafə saxlamalıdır.

Düşünürəm ki, ən böyük təhlükə isə bizim bəzi ziyalıların, hətta bəzi həkimlərin koronavirus infeksiyasının mövcudluğunu şübhə altına almasıdır. Bu çox böyük təhlükədir. Əgər həkimlərimiz, ziyalılarımız deyirsə ki, ölkəmizdə koronavirus yoxdur, onda başqalarından nə gözləyək? Bu, təhlükəli tendensiyadır. Əgər belə məsuliyyətsiz olsaq, hansı nəticə ala bilərik?

Hər bir xəstəliyin müalicəsindən daha asan onun profilaktikası, qarşısının alınmasıdır. Amma biz müşahidə edirik ki, stasionar müalicə üçün müraciət edən xəstələr bəzi hallarda ağırlaşmış formada olanlardır. Onlar ağırlaşmalarla xəstəxanaya gətirilirlər. Bu xəstəliyin əlamətini hiss edən insanlar mütləq təcili olaraq həkimlərə müraciət etməlidirlər.

Mən əminəm ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə aparılan genişmiqyaslı kompleks tədbirlər öz nəticəsini verəcək, yaxın vaxtlarda pandemiya ilə mübarizədə daha yüksək nəticələr əldə edəcəyik.

# “Virusa inanmayanlar digərlərinin əziyyətinin üstündən xətt çəkir”

***“Virusa inanmayan şəxslər sərt karantin günlərində evdə qalan, sosial məsafəni saxlayan, bütün qaydalara riayət edən şəxslərin əziyyətinin üstündən xətt çəkirlər”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin üzvü olan deputatı Cavid Osmanov deyib.***

O bildirib ki, koronavirusla mübarizədə Operativ Qərargah tərəfindən bu günə qədər bir sıra tədbirlər müəyyənləşdirildi və həyata keçirildi, bu tədbirlərin hər biri Ümumdünya Səhiyyə Təşkilatının tövsiyyələrinə uyğun tətbiq edilir, lakin, sərt karantin rejiminin yumşaldılmasından sonra biz yoluxma sayında artım müşahidə edirik və dünən isə ilk dəfə ölkəmiz üçün rekord həddə, bir gündə 7 nəfər virusdan həyatını itirdi: “Bu hal heç də xoşagələn mənzərə yaramır. Əgər daha əvvəl sərt karantin rejimi tətbiq olunmasaydı bugünkü mənzərə daha gərgin statisikanı ortaya qoya bilərdi. Ölkəmizdə virusun yayılma tempi daha çox ola bilərdi. Sərt karantin rejimi tətbiq etməklə insanların biri-biri ilə təmasını maksimum azaltmış olduq. Elə həmin ərəfədə səhiyyə infrostrukturunun hazır vəziyyətə gətirilməsi də həyata keçirilmişdi. Dünyanın bir çox ölkələrində belə bir mənzərənin şahidi olmuşuq. Hansı ki, sərt karantindən sonra yumşalmaya doğru getdikdə yoluxma statistikasında artım dinamikası müşahidə olunub. Biz də də eyni mənzərə hazırda özünü göstərir”.

Millət vəkili vurğulayıb ki, bu məsələdə dövlət öz üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirir lakin, vətəndaşların indiki vəziyyətdə daha məsuliyyətli olmasına ehtiyacımız var: “Son iki həftə ərzində iki günlük sərt karantin rejimi tətbiq edildi. İlk növbədə 5 ayrı bölgədə tətbiq olundu, daha sonra onların sayı 9-a çatdı. Bu o deməkdir ki, virusun yayılma coğrafiyası da genişlənir. Sərt karantin günlərində vəziyyətdən suiistifadə hallarına da şahid olduq. Müxtəlif yollarla ölkəmizin başqa rayonlarına üz tutmuş insanların bu sərt karantin günlərini adi istirahət günləri kimi qəbul etdiyi müşahidə etdik. Məhz bu hallar da virusun yayılma çoğrafiyasını təbii ki, genişləndirir. Ən vacib məsələ hazırda vətəndaşın vəziyyətin mürəkkəbliyini anlaması və məsuliyyətli davranmasıdır. Qoyulan qaydalara riayət etmək vacibdir. Əks təqdirdə yoluxmaların sayı davam edəcək, paralel olaraq ölüm hallarının da sayı artmış olacaq. Bəzi məsuliyyətsiz vətəndaşlarımız bu qədər yoluxma və insan təlafatına baxmayaraq, bu prosesin bütün dünyanı əhatə etməsinə baxmayaraq hələ də bu



virusa inanmırlar. Bunu hələ də dünya miqyasında oyun adlandıranlar var. Təbii ki, bunların hamısı cəfəngiyyatdır. Bütün bunlara inanan şəxslər sərt karantin günlərində evdə qalan, sosial məsafəni saxlayan, bütün qaydalara riayət edən şəxslərin əziyyətinin üstündən xətt çəkirlər. Virusa inanmayan insanlar fədakar həkimlərimizin, eyni zamanda Daxili İşlər Nazirliyi orqanlarının əməyinin üstündən xətt çəkirlər.

## Azərbaycanın MDB ölkələri ilə ticarət dövriyyəsi azalıb

Bu ilin yanvar-may ayları ərzində Azərbaycanın MDB ölkələri ilə apardığı ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 0,9% azalaraq 1 687 773,8 min ABŞ dollarına enib. SİA xəbər verir ki, Dövlət Gömrük Komitəsinin dərc etdiyi hesabat əsasında apardığı hesablamalarına görə, bu müddətdə ixracın həcmi ötən ilin analoji dövrü ilə müqayisədə 132 816 min dollar və ya 29,7% artaraq 580 034,6 min dollar, idxal isə 148 788,8 min. dollar və ya 11,8% azalaraq 1 107 739,2 min dollar təşkil edib.

Nəticədə, hesabat dövründə 527 704,6 min dollarlıq mənfi ticarət saldosu yaranıb ki, bu göstərici 2019-cu ilin analoji dövrü ilə müqayisədə 281 604,8 min dollar və ya 34,8% azdır.

# Vüqar Rəhimzadə: Qərbin demokratiya institutları işğalçı Ermənistanı nə zamanadək ərköyünləşdirəcək?



***İşğalçı Ermənistan hər zaman demokratik dəyərlərə, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizliyi ilə diqqət çəkir, dünya isə susmağında davam edir. Çünki bu ölkənin mayası işğalçılıqdan, terrordan, demokratik dəyərlərə hörmətsizlikdən yoğrulsa da bu və ya digər dövlətlərin, beynəlxalq təşkilatların maraqlarının ifadəçisinə çevrilməsi, onların əlində alət rolunu oynaması evin ərköyün uşağı kimi başına sığal çəkilməsinə səbəb olur.***

Amma dünya unudur ki, bir cinayətin cəzasız qalması digər cinayətə yol açır. Necə ki, tarixin bütün dövrlərində azərbaycanlılara və türklərə qarşı soyqırımı və deportasiya siyasəti həyata keçirən Ermənistana buna görə heç bir təzyiq göstərilmədiyindən 1988-ci ildə əsassız torpaq iddiasının nəticəsi olaraq Azərbaycan ərazilərinin 20 faizi işğal olunub, bir milyondan çox soydaşımız öz doğma yurd-yuvalarından didərgin salınıb. 30 ildən artıqdır ki, münaqişə ədalətli həllini gözləyir, problemin həlli ilə bağlı möhkəm hüquqi baza mövcud olsa da, nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr hələ də kağız üzərində qalmaqdadır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə qeyd edib ki, işğalçı dövlətin siyasətində qonşu dövlətlərə qarşı əsassız torpaq iddiası, terroru dəstəkləmək kimi cinayət əməlləri əsas yer tutursa və dünya buna göz yumursa, rəhbərlikdə köçaryanların, sarkisyanların, paşinyanların təmsil olunmasından asılı olmayaraq daim beynəlxalq hüququn norma və prinsipləri kobud şəkildə pozulacaq, işğalçı Ermənistan utanmadan guya haqlı olduğunu bəyan edəcək, ona dəstək fonunda beynəlxalq təşkilatların, böyük dövlətlərin mövqeyinə inamsızlıq yaranacaq, bir sözlə, ədalət meyarı özü-özlüyündə bütün ölkələrə demokratiya dərsi keçən dövlətlərin maraqlarına uyğun olaraq və onların iştirakı ilə əriyəcək. Təbiidir ki, yalan üzərində qurulan və ona kənardan gələn dəstək əsasında həyata keçirilməsi davam etdirilən siyasətin sonu olmaz.

Baş redaktor bildirib ki, işğalçı dövlətdə hazırda təkcə pandemiya böhranı deyil, həm də siyasi böhran yaşanır: "Çiçəklənən Ermənistan" partiyasının sədri, Ermənistan parlamentindəki "Sarukyan" fraksiyasının lideri, milyonçu Qaqik Sarukyanın deputat toxunulmazlığı parlament tərəfindən ləğv edilib və o, ölkənin təhlükəsizlik qüvvələri tərəfindən ifadə vermək üçün istintaqa cəlb olunub. Q.Sarukyanın həbs ediləcəyi istisna olunmur. Onun məhz N.Paşinyan hakimiyyətini tənqid etməsindən sonra təzyiqlərə məruz qalması baş verənlərin siyasi təqib olduğunu sübut edir. Q.Sarukyanla bağlı son hadisələr fonunda özlərini "azadlıq carçısı" adlandıran bəzi beynəlxalq təşkilatların, beynəlxalq QHT-lərin, ümumən bir sıra Qərb təşkilatlarının səssizliyi diqqətdən kənarda qalmır. Çünki digər ölkələrdə, xüsusilə Azərbaycanda baş verən ən kiçik olayı diqqətlə izləyib, ona öz maraqlarına uyğun olaraq siyasi don geyindirməyə, ən əsası demokratik prinsiplərin kobud şəkildə pozulması kimi təqdim etməyə çalışan Qərbin demokratiya institutları nə üçün işğalçı dövlətə "diqqətsizlik" nümayiş etdirir? Bu "diqqətsizliklərin" fərqində olmayan həmin qurumlar özləri demokratiyanın tələblərini kobud şəkildə pozur, artıq bu reallığı təsdiqləyirlər ki, hazırladıqları hesabatlar reallıqları deyil, Azərbaycanın daxilindəki hansısa antimilli ünsürlərin, erməni və ermənipərəst dairələrin maraqlarını əks etdirir. Ona görə "Freedom House", "Amnesty International" kimi beynəlxalq hüquq müdafiə təşkilatları işğalçı Ermənistanı "azad", Azərbaycanı kimi demokratik dəyərlərə sadiqliyini sözdə deyil, əməldə təsdiqləyən dövləti "qeyri-azad" ölkələr sırasında qeyd edir. Ən böyük ədalətsizlik isə Dağlıq Qarabağın Azərbaycan və Ermənistanın müştərək ərazisi kimi təqdim edilməsidir".

V.Rəhimzadə ölkəmizdə vətəndaşların bütün azadlıqlarının təmin edildiyini önə çəkərək bu məqamı da xüsusi qeyd edib ki, demokratik cəmiyyətin vacib elementlərindən biri kimi sivil mübarizənin əsas tərkib hissəsi küçə yürüşlərinin, mitinqlərin, kütləvi aksiyaların keçirilməsidir: "Azərbaycanda bu sahədə təkmil qanunvericilik mövcuddur. "Sərbəst toplaşma haqqında" Qanun zamanın və dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilir. Azərbaycanda yaradılan bu şəraitə baxmayaraq, hansısa dağıdıcı ünsür xaricdən gələn sifariş əsasında küçəyə çıxaraq, ölkədə qarşıdurma yaratmağa çalışdığı üçün icazəsiz aksiyalara meyil göstərir, bu cəhdlərin qarşısı qanuni yolla alındıqda adlarını çəkdiyimiz beynəlxalq hüquq müdafiə təşkilatları dərhal Azərbaycanı insan hüquqlarını kobud şəkildə pozmaqda ittiham edirlər. Təbii ki, burada əsas olan reallıq deyil, qərəzdən yaranan hansısa bir fikrin səsləndirilməsidir. Amma gəlin diqqət yetirək, işğalçı Ermənistanda Q.Sarukyanın tərəfdarları parlamentin qarşısında etiraz aksiyası keçirməyə cəhd göstərir, ölkənin təhlükəsizlik qüvvələri onun qarşısını kobudluqla alır, yüzlərlə insan saxlanılır. Qərbin demokratiya institutları bunu görməzdən gəlir. Niyə? Azərbaycan dövləti bu "niyələrin" səbəblərini ən yüksək tribunalardan bəyan edir, "xəbərsiz", eşitmək problemi olan isə deyəsən həmin beynəlxalq qurumların özləridir. İşğalçı dövlətdə polis aksiyanı işıqlandıran jurnalistlərə qarşı güc tətbiq edir. Bu, işğalçıya dəstək olan qurumlar, dövlətlər üçün demokratiyanın tələbidir. Amma başqa ölkələrdə, xüsusilə Azərbaycanda demokratik dəyərlərin kobud şəkildə pozulması, mətbuat azadlığının boğulmasıdır. Dünya Ermənistanda müxalif siyasətçi və jurnalist Mher Yeqizaryan həbsxanada elan etdiyi aclığın ardından vəfat etdikdə niyə reaksiya vermədi? Mütəmadi olaraq dünya ölkələrində insan hüquqları sahəsində vəziyyətlə bağlı illik hesabatını açıqlayan ABŞ Dövlət Departamenti, demokratik prinsiplərin inkişafı ilə məşğul olan Avropa Şurası Parlament Assambleyası, demokratiyaya, azad mətbuata dəstək missiyasını yerinə yetirən ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi, dünyaya demokratiya dərsi keçən ABŞ-ın, həmçinin digər Qərb ölkələrinin Ermənistandakı səfirlikləri niyə bu ölkədə demokratiyanın boğulmasına münasibətlərini bildirməkdə "çətinlik" çəkirlər?"

"Azərbaycan istər demokratik islahatların dəyərləndirilməsi sahəsində, istərsə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində dünyanın ikili siyasətini hiss edir və daim buna öz sərt mövqeyini açıqlayır", - söyləyən siyasi elmlər doktoru Vüqar Rəhimzadə onu da vurğulayıb ki, Qərb hazırda işğalçı dövlətdə yaşanan siyasi böhranı görməzlikdən gəlsə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 30 ildən artıq uzanmasının səbəblərindən xəbərdardır. Bunun üçün geniş şərhə ehtiyac görmürük.

V.Rəhimzadə bildirib ki, N.Paşinyan hakimiyyətə gəldikdən sonra demokratiya adı altında ölkənin tanınmış siyasi və ictimai xadimlərinə qarşı olan repressiv vasitələrdən geniş şəkildə istifadə etməsi və onları bir-bir sıradan çıxararaq zərərsizləşdirməsi məlum olaylardandır: "Paşinyan öz siyasi rəqiblərini bir-bir həbsə atmaq yolunu tutub. Gələcəkdə özünə rəqib olacaq və ya rəqib olma ehtimalı ola bilən istənilən şəxsi korrupsiyaya qarşı mübarizə ittihamı ilə həbs etməsi və bunun fonunda Qərbin sükutu N.Paşinyanın əl-qolunu daha da açır. Onun yeganə məqsədi öz hakimiyyətinin müddətini uzatmaqdırsa, ona dəstək verən dünya dövlətlərinin məqsədi isə öz maraqlarını həyata keçirmək üçün siyasətdən xəbəri olmayan paşinyanları hakimiyyətdə saxlamaq və ondan bir vasitə kimi istifadə etməkdir. Maraqların üst-üstə düşməsi Ermənistanın ərköyünlüyünün dərinləşməsində katalizator rolunu oynayır. Amma 30 ildən artıqdır ki, dünya dövlətlərinin maraqlarının toqquşması fonunda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi özünün ədalətli həllini gözləyir. Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə yaradılan ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin problemin həllinə öz maraqları prizmasından yanaşmaları hələ də ümumi mövqenin ortaya qoyulmasını çətinləşdirir. Nə qədər ki, dünya ikili siyasətinə son qoymayıb, qəbul edilən qətnamələr kağız üzərində qalıb münaqişəli məsələlərin həllində ədalət axtarmaq sadəlövhlük olar. Ermənilərə ədalət meyarının nə olduğunu başa salmağın zamanıdır. İnkaredilməz həqiqətdir ki, hər bir ölkənin inkişafında dövlət başçısının düşünülmüş və məqsədyönlü, gələcəyə hesablanmış siyasəti, ən əsası xalq qarşısında verdiyi vədləri əməli işində təsdiqləməsi nə qədər əsasdırsa, dünyada mövcud olan münaqişələrin ədalətli həlli üçün bəyanatlarında beynəlxalq hüququn norma və prinsiplərinə riayət edən dövlətlərin bu sənədlərin icrasında maraqlı olmaları, ən əsası səy göstərmələri bir o qədər əhəmiyyət kəsb edir. Yalnız bu halda istər beynəlxalq təşkilatlar, istərsə də dünya dövlətləri özlərinə qarşı böyük inam hissi formalaşdırar, ümumilikdə isə münaqişələrin həlli prosesinin uzanmasına imkan verməz, ədalət meyarı bütün dövlətlərə eyni mexanizm əsasında tətbiq edilər".

## İmkansız amerikalılar pulsuz peyvəndlə təmin ediləcək

Tramp administrasiyası peyvənd pulunu ödəmək imkanı olmayan bütün amerikalıları COVİD-19 virusuna qarşı vaksinlə pulsuz təmin edəcəyini bildirib. Hökumət nümayəndəsinin sözlərinə görə, sığorta şirkətlərinin amerikalıların əksəriyyəti üçün vaksinin pulunu ödəyəcəyi ehtimal edilir. Vaksinin ilin sonunda hazır olacağı gözlənilir. Federal vəsaitlər hesabına əldə olunan peyvənd yalnız amerikalıların ehtiyacları ödənildikdən sonra başqa ölkələrə göndəriləcək. Qeyd edək ki, ABŞ rəhbərliyi "İşıqdan sürətli" əməliyyat çərçivəsində 2021-ci ilin yanvarınadək 300 milyon doza vaksin hazırlamaq niyyətindədir.



## Metroda maska taxmayan sərnişinlər məsuliyyətə cəlb olunublar

Koronavirus (COVID-19) infeksiyasının insanlar arasında kütləvi yayılmasının qarşısının alınması məqsədilə metrodan istifadə edən sərnişinlər arasında profilaktik tədbirlər keçirilib. Polis əməkdaşları tərəfindən Bakı metropoliteninin ayrı-ayrı stansiyalarında sosial məsafəni gözləməyən, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyən şərnişinlər qanunvericiliyə uyğun olaraq, inzibati məsuliyyətə cəlb olunublar.




Bakı Şəhər Baş Polis İdarəsindən xezerxeber.az-a verilən məlumata görə, metropolitendə polis şöbəsinin və inzibati ərazilərdə xidmətə cəlb olunan əməkdaşlardan ibarət naryad qrupları stansiyaların girişlərində, platformalarında, mövcud preventiv tədbirlərə əməl etməyən şəxslərlə profilaktiki söhbətlər aparıblar. Diqqətə çatdırılıb ki, koronavirus infeksiyasının insanlar arasında kütləvi yayılmasının qarşısının alınması məqsədilə hər bir hərəkət iştirakçısı sosial məsafəni gözləmək şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən - tibbi maskalardan istifadə etməlidir. Nəzərlərinə çatdırılıb ki, hər bir şəxs tətbiq olunan qaydalara, sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər şəxsləri qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da buna çağırmalıdır.

Üzərində maskası olmayan sərnişinlərə maskalar paylanılıb, maskadan düzgün istifadə etməyən, polis gördükdə dərhal "maskadan istifadə edirəm, maskam var" deyən şəxslərə koronavirus infeksiyasının fəsadları izah olunub. Profilaktiki tədbirlər davam etdirilir.

## Con Kennedinin bacısı 92 yaşında öldü

ABŞ-ın 35-ci prezidenti Con Kennedinin bacısı Cin kennedi Smit 92 yaşında vəfat edib. Bu barədə onun qızı Kim məlumat verib. Cin Kennedi iyunun 17-də Nyu-Yorkun Manhetten rayonundakı evində dünyasını dəyişib. Cin Kennedilər ailəsindən sağ qalan yeganə şəxs idi. Qeyd edək ki, Cin Kennedi 1993-1998-ci illərdə ABŞ-ın İrlandiyadakı səfiri olub.








# Ermənistanda siyasi xaos dərinləşir

*“Beynəlxalq təşkilatlar Ermənistandakı vəziyyəti düzgün qiymətləndirməli, oradakı hakimiyyətin əsl mahiyyətini dərk etməlidirlər”*

***Qaqik Sarukyanla bağlı son hadisələr fonunda “azadlıq carçısı” olan bəzi beynəlxalq təşkilatların səssizliyi Qərbin ölkələrə münasibətdə ikili standartlar çərçivəsində yanaşmasının bariz nümunəsidir.Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu bildirib.***

O qeyd edib ki, hakimiyyətə gəldiyi vaxtlardan Paşinyanın Ermənistanda müsbət dəyişikliyə nail ola bilməyəcəyi bəlli idi. Paşinyan hakimiyyətə təsadüfi gəlmiş adamdır və onun hakimiyyətə gəlməsini təmin edən əsas amil kütlənin Sarkisyandan kəskin narazılığı oldu. Görünən reallıq həm də ondan ibarət idi ki, əslində Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın da ölkədəki dövlət çevrilişində müəyyən rolu vardı. Çünki Sarkisyan kimi diktatorun, terrorçunun sakit şəkildə hakimiyyətdən imtina etməsi çox şübhəli görünürdü. Bu baxımdan, bütövlükdə Paşinyanın hakimiyyətə gətirilməsi Sərkisyanın da iştirakçısı olduğu bir layihə idi. Bu layihə Qərb dairələri tərəfindən reallaşdırılmağa başladı. Paşinyanın hakimiyyətə gətirilməsinin motivləri, əsasən, geosiyasi xarakterli idi. Paşinyanı hakimiyyətə gətirən dairələr, ona dəstək verən xarici qüvvələr onun qarşısında əsas vəzifə kimi Ermənistanı Rusiyanın təsirindən uzaqlaşdırmağı qoymuşdu. Paşinyan hakimiyyətə gəlməzdən əvvəl də Qərb dairələrinə çox canfəşanlıqla işləyirdi. Paşinyan Ermənistanın KTMT-yə və Avrasiya İqtisadi Birliyinə üzv olmasına qarşı kəskin çıxışlar edib. Onun bu “keyfiyyət”ləri də nəzərə alınaraq, hakimiyyətə gətiriləcək subyekt kimi müəyyənləşdirildi.

Deputat qeyd edib ki, hakimiyyətə gəldiyi ilk vaxtlardan idarəetmədə avtoritarizm prinsiplərinə söykənən Paşinyan ondan sonra da özünü qatı diktator kimi göstərməyə başladı. “Paşinyanın dəstxətini dəstəkləməyən istənilən şəxs düşmən elan olunurdu. Gələcəkdə özünə rəqib olacaq və ya rəqib olma ehtimalı ola bilən istənilən şəxsi korrupsiya ilə mübarizə ittihamı ilə həbs etməsi və bunun fonunda Qərbin sükutu Paşinyanın əl-qolunu daha da açır. Hakimiyyətdə olduğu müddətdə kütləni korrupsiyaya qarşı mübarizə aparması görüntüsü ilə aldadan Paşinyanın artıq bu limiti də tükənib. Bütün korrupsionerlərə qarşı “mübarizə” başa çatmış sayıla bilər. Paşinyan bu ad altında özünün siyasi rəqibləri ilə haqq-hesab çürütdü. Kütlə də bunu görür. Vaxtilə Paşinyanı dəstəkləmiş kəsim də onun, sadəcə olaraq, bu günə kimi imitasiya ilə məşğul olduğunun fərqinə varır və ondan üz sürətlə döndərməyə başlayır. Bu da Paşinyanın siyasi hakimiyyətinin sonunun yaxınlaşdığını göstərir. Bu zaman hər dövrdə çevik hərəkətlər etməyi bacaran Sarukyan yenə də bu çevikliyini nümayiş etdirir. Bir vaxtlar Paşinyanı dəstəkləyən Sarukyan onun hakimiyyətdə ömrünün sonlarının yaxınlaşmaqda olduğunu hiss etməsə, heç bir halda onu açıq şəkildə istefaya çağırmazdı. Ermənistanda dərin hakimiyyət böhranı mərhələsi başlamaqdadır. Növbəti mərhələdə də ayaqda qalmaq üçün Sarukyan, obrazlı desək, Paşinyanın gəmisini tərk etmək qərarına gəlib. Belə olan halda, Paşinyan yenə də diktator sifətini göstərdi və antikonstitusion addımlar atmaqdan çəkinmədi. Paşinyanın sifarişi ilə Sarukyanın deputat toxunulmazlığı ilə bağlı statusu aradan qaldırıldı və onun həbs imkanları genişləndi. Bununla Paşinyanın demokrat maskası tamamilə yırtıldı. Digər tərəfdən, Ermənistan cəmiyyəti də elə diktator üsulları ilə idarə edilməyə öyrəşmiş cəmiyyətdir. Çünki terrorçu hakimiyyətin təsiri altında qalan cəmiyyətdə həm terrorizmə, həm də anti-demokratik prinsiplərə meyillilik hər zaman güclü olur”, - deyə siyasi elmlər doktoru əlavə edib.

E.Mirbəşiroğlu vurğulayıb ki, bütün bunların fonunda beynəlxalq ictimaiyyət də hazırda Ermənistanda baş verənlərə sadəcə tamaşaçı qismində baxmaqdadır. Bu, Qərbin özünü görməməzliyə vurduğu ilk hadisə deyil. 2017-ci ildə Ermənistanda parlament seçkiləri keçirildi. Bu seçkiləri müşahidə edən Qərb təşkilatlarının rəyində Ermənistanda bütün başlıca azadlıqlara əməl edildiyi göstərilmişdi. Lakin az sonra Ermənistanda inqilab baş verdi və seçkiləri uduzmuş indiki baş nazir hakim partiyanı devirdi. Qərb təşkilatlarının dəstəyi ilə hakimiyyətə gələn Paşinyan seçkilərin nəticəsini ləğv etdi və növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı qərar verdi. Burada Qərb dairələrinin özlərinin özlərini inkar etməsi faktı müşahidə olundu. Paşinyan özünü demokrat kimi təqdim edirdisə, necə oldu ki, həmin dövrdə baş nazirlik postuna özündən başqalarının namizədliyini qəbul etmədi. Yəni, rəqabətsiz mühitdə Ermənistanın baş naziri seçildi. Bundan sonra da siyasi rəqiblərinə qarşı repressiyalara başladı və əsas diqqətini özünün hakimiyyətinin möhkəmləndirilməsinə yönəltdi. Hətta dünyanın pandemiyadan əziyyət çəkdiyi bir dövrdə ÜST-ün tövsiyələrinin kobud şəkildə pozularaq Paşinyan tərəfindən qondarma rejimdə “seçkilər”in keçirilməsi, saxta seçkilərin saxta nəticələrinin kütləvi şəkildə qeyd olunması bir daha göstərdi ki, Ermənistanın baş naziri öz siyasi ambisiyalarına çatmaq üçün bütün vasitələrə əl atmağa, dəyərləri tapdalamağa və bəşəri cinayətlər törətməyə hazırdır. Hazırkı Ermənistanın “demokratik” rejiminin mahiyyəti bundan ibarətdir.

Beynəlxalq təşkilatların Ermənistandakı vəziyyəti düzgün qiymətləndirməli, oradakı hakimiyyətin əsl mahiyyətini dərk etməli və bunu etiraf etməli olduğunu bildirən deputat deyib: “Hazırda Ermənistanda yaşanan xaos davam etməkdə və Paşinyana qarşı ciddi koalisiya yaranmaqdadır. Bu koalisiyanın özü də demokratik dəyərlərdən uzaqdır. Beynəlxalq təşkilatlar işğalçı Ermənistanın rəhbərləri ilə ünsiyyət qurarkən Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi istiqamətində də artıq fərqli addımların atılması reallığından çıxış etməlidirlər. Azərbaycanofobiyadan ilhamlanan bəzi təşkilatlar ölkəmizdə ən xırda məsələyə reaksiya verdikləri halda, Ermənistanda baş verən qanunsuzluğa qarşı bir dəfə də olsun hansısa ittiham səsləndirməmək ənənələrinə son qoymalıdırlar. Münaqişənin tənzimləməsi istiqamətində vasitəçilik funksiyasını yerinə yetirən beynəlxalq təşkilatlar artıq işğalçı, terrorçu hakimiyyətlə onun dilində danışmalı, təzyiq rıçaqlarına əl atmalıdırlar. Belə olan halda, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz ədalətli həllini tapa bilər” , - deyə deputat qeyd edib.ə

# "Ermənistan səfirliyi qarşısında etirazların sayı artıb"



**"Ermənistanın baş naziri Nikol Paşinyan İranla əməkdaşlığa əhəmiyyət verir. O İranda rəsmi səfərdə oldu və iki ölkə arasındakı əlaqələrin inkişaf etdirilməsi vacibliyindən danışdı. Buna baxmayaraq, Ermənistan hakimiyyəti İsraildə səfirlik açıqlması istiqamətində də müəyyən işlər görür". Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib.**

Politoloqun sözlərinə görə, Ermənistan və İsrail rəsmiləri arasında görüşlər olub: "Ermənistan rəsmiləri və diplomatları İsraildə səfirliyin açılması mümkünlüyünü istisna etməyiblər. Ermənistan ona görə İsraildə səfirlik açmaq istəyir ki, İsrail-Azərbaycan əməkdaşlığına mane olsun. İrəvan bu əlaqələrdən narahatdır. İsrailin Azərbaycana müasir silahlar və hərbi texnika satması Ermənistanda böyük narazılıq yaradır. İsrailin Azərbaycana satdığı son raketlər İrəvana çatmaq imkanına malikdir. Buna görə də Ermənistanın hakimiyyət nümayəndələri İsraildə səfirlik açmaq və bu yolla İsrail-Azərbaycan hərbi əməkdaşlığına mane olmaq istəyirlər. Ancaq İrəvan ciddi mane ilə üzləşib.

Tehranda Ermənistan səfirliyi qarşısında etirazların sayı artıb. İran vətəndaşları Ermənistanın İsraildə səfirlik açmaq istəyinə etiraz edirlər. İranlılar tələb edirlər ki, Ermənistan İsraildə səfirlik açmaq planından əl çəksin və İsrail ilə bütün əlaqələri kəssin. İrandakı etirazlar İrəvanı qorxudub. Çünki, Ermənistan rəsmiləri anlayırlar ki, səfirlik qarşısında etirazların arxasında İran hakimiyyəti dayanır. Tehran Errmənistan səfirliyi qarşısında etirazlara şərait yaratmaqla İrəvana xəbərdarlıq mesajı göndərir.

Bu arada, İsrail prezidenti Reuven Rivlinin Azərbaycan prezidenti İlham Əliyev məktubu diqqəti cəlb edir. Məktubda belə bir hissə var: "Gələn il Azərbaycan və İsrail diplomatik münasibətlərin yaradılmasının 30 illiyini qeyd edəcək. Cənab Prezident, fürsətdən istifadə edib münasibətlərimizdəki bu əlamətdar hadisəni qeyd etmək üçün Sizi İsrail dövlətinə tarixi səfərə dəvət edirəm".

Məktubun ikinci hissəsindəki fikir də maraqlıdır: "Azərbaycanın yaxın gələcəkdə İsraildə səfirliyinin açılmasına səmimi qəlbdən ümid edirəm. Hər iki ölkədə diplomatik nümayəndəliklərin olması münasibətlərimizin möhkəmlənməsi və dərinləşməsi istiqamətində daha böyük addımlar atmağa təkan verəcək və bu da xalqlarımıza böyük fayda gətirəcək".

Beləliklə, İsrail prezidentinin Azərbaycan Prezidentindən iki xahişi var:

Birinci xahiş odur ki, Tel-Əviv Azərbaycan prezidentinin İsrailə rəsmi səfərə gəlməsini istəyir;

İkinci xahiş isə odur ki, Azərbaycan İsraildə səfirlik açsın.

İsrail rəsmiləri illərdir bu iki xahişi səsləndirirlər. Eyni sözləri İsrailin Azərbaycandakı səfiri son müsahibəsində vurğulayıb. Səfir öz ölkəsinin prezidentinin fikirlərini təkrarlayıb.

Əlbəttə, Azərbaycan İsraillə əməkdaşlığın inkişafında maraqlıdır. İsrail neftə tələbatının təxminən 35-40 fazini Azərbaycan nefti hesabına ödəyir. Azərbaycan İsraildən aldığı müasir hərbi texnikadan məmnundur. Misal üçün Azərbaycanın İsraildən aldığı LORA müasir raket komplekslәri böyük dağıdıcı gücə malikdir.

Buna baxmayaraq, rəsmi Bakı da İran faktorunu nəzərə alır. İran indiki halda belə Azərbaycan-İsrail münasibətlərindən narazıdır. Halbuki, bu münasibətlər İrana qarşı yönəlməyib. Aydındır ki, Azərbaycanın İsraildə səfirlik açması ilkin aylarda Tehranın Azərbaycana qarşı siyasətinin sərtləşməsinə gətirib çıxaracaq. Buna baxmayaraq, rəsmi Bakı Tel-Əvivdə səfirlik açdıqdan bir müddət sonra İran-Azərbaycan münasibətlərinin yenidən əvvəlki axarına qayıdacağını da ehtimal etmək olar. Türkiyənin illərdir İsraildə səfirliyi var və bu amil Ankara-Tehran münasibətlərini gərginləşdirmir.

Tel-Əvivin istədiyi kimi Azərbaycan prezidentinin yaxın müddətdə İsrailə səfər edəcəyini proqnozlaşdırmaq çətindir və bu yalnız İran amili ilə əlaqəli deyil. Rəsmi Bakı Türkiyə və ərəb dünyası amili ilə də hesablaşır. Belə bir səfər nə vaxtsa reallaşacaqsa, Azərbaycan prezidenti İsraillə yanaşı Fələstinə də keçəcək və bu ərəb ölkəsinin lideri ilə də görüşəcək. İsrailə səfər edənlər digər liderlə də belə edir. Elə Rusiya prezidenti Vladimir Putin bir neçə ay əvvəl İsrarilə səfərini yekunlaşdırdıqdan sonra Fələstinə keçərək bu ölkənin rəhbəri Mahmud Abbasla da görüşdü.

Hazırki vəziyyətdə Azərbaycanın müxtəlif nazirlərinin İsrailə səfərləri reallaşa bilər. Ayrıca, iki ölkənin hökumətlərarası komissiyaları fəaliyyət göstərir ki, nazirlər il ərzində müxtəlif görüşlər həyata keçirirlər. Azərbaycanın İsraildə səfirliyi olmadan da iki ölkə arasındakı əməkdaşlığı inkişaf etdirmək mümkündür. və bu əməkdaşlıq İrana qarşı yönəlməyib. Azərbaycan İranla əməkdaşlığın inkişafında və dost münasibətlərinin davamında maraqlıdır. Rəsmi Bakı müstəqil xarici siyasətində həm İran, həm də İsraillə yaxşı münasibətlərə malik olmaq istəyir".

**Ceyhun Rasimoğlu**

# Erməni iqtisadçı "SOS!" siqnalı verdi



*Liliya Amirxanyan: "Bizdə İranla problemlər var, biz Rusiya ilə çox problemlər yaşamaqdayıq, faktiki olaraq Çinlə də yeni faktiki problemlərlə qarşı-qarşıya dayanmışıq"*

***"Hakimiyyət xarici kapitalla işləyən şirkətlərə risklər yaradacaq daha bir addım atır. Bizdə bunun üçün presedentlər var və belə bir vəziyyət onsuz da itirilmiş investisiya cəlbediciliyimizə mənfi təsirlərini göstərəcək".***

SİA xəbər verir ki, bunu Ermənistan TV-da yayımlanan "Baxış-İqtisadiyyat" rubrikasının "Lilit Tumanyanla səhər xəbərlərində" "Hayatsk" analitik mərkəzinin ekperti Liliya Amirxanyan deyib.

### "Ətrafında cərəyan edən istənilən olay biznesə qeyri-müəyyən, mənfi təsirlərini göstərəcək"

"Daxili siyasət hadisələri kontekstində biz Qagik Çarukyannın nəhəng biznesmen faktını inkar edə bilmərik və bunun ardı olaraq, onun ətrafında cərəyan edən istənilən olay biznesə qeyri-müəyyən, mənfi təsirlərini göstərəcək", deyən erməni iqtisadçı onu da qeyd edib ki, Çarukyanın nəzarətində olan şirkətlər ilk olaraq kapital itkiləri problemi ilə qarşı-qarşıya qalacaqlar.

Amirxanyan xatırladıb ki, 2018-ci ildə baş verən hadisələrdə də kapital itkiləri yaşanmışdı: "2018-ci ildə yalnız banklardan deyil, birbaşa pul köçürmələrində də xarici valyuta itkiləri axını yaşanmışdı. Həmin il Ermənistandan Rusiyaya 20 faiz diapazonunda daha çox pul köçürmələri həyata keçirildi. Başqa sözlə, kapital itkisi axını təcrübə ilə də sübut olunub. Nəticədə proseslər alternativlik yaradılmadan neqativ hallara gətirib-çıxarır".

### "Artan münaqişə insan haqları, demokratiya və söz azadlığı baxımından Qərb və Avropa ölkələri ilə də problemlər yaradır"

İqtisadçı əsas partnyorlar barədə də danışıb: "Bizdə İranla problemlər var, biz Rusiya ilə çox problemlər yaşamaqdayıq, faktiki olaraq Çinlə də yeni faktiki problemlərlə qarşı-qarşıya dayanmışıq. Və əlbəttə ki, artan münaqişə insan haqları, demokratiya və söz azadlığı baxımından Qərb və Avropa ölkələri ilə də problemlər yaradır". Ekspert qeyd edib ki, bütün bunlar sistemli böhrana, iflasa gətirib-çıxarır və belə olan vəziyyətdə onların yenidən bərpa edilməsi tələbi yaranacaq.

**Rövşən NURƏDDİNOĞLU**

# "Ermənistandakı repressiyalara susmaq riyakarlıqdır"



"Artıq bütün dünya bilir ki, işğalçı ölkəni müxalifətdəki "Çiçəklənən Ermənistan" partiyasının sədri, Ermənistan parlamentindəki "Sarukyan" fraksiyasının lideri, milyonçu Qaqik Sarukyanın deputat toxunulmazlığı parlament tərəfindən ləğv edildi və təhlükəsizlik qüvvələri tərəfindən ifadə vermək üçün istintaqa cəlb edildi. Heç şübhəsiz ki, Q.Sarukyan həbs ediləcək. Sarukyanın tərəfdarları Ermənistan parlamentinin önündə etiraz aksiyası keçirməyə cəhd göstərsə də, ölkənin təhlükəsizlik qüvvələri tərəfindən onun qarşısı kobudluqla alınıb və yüzlərlə adam saxlanılıb". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Ermənistanda polis aksiyanı işıqlandıran jurnalistlərə qarşı güc tətbiq edib: "Bu hadisələr zamanı insanların ifadə azadlığı, sərbəst toplaşma hüququ, KİV-in sərbəst fəaliyyətinə imkan yaradılması qaydaları kobud surətdə pozulub. Qərbin "önəm verdiyi" bütün bu dəyərlər ayaq altına salınıb. Amma nədənsə Qərb bu hadisələri görməzdən gəlir. Azərbaycanda əhəmiyyət bir hadisə olan kimi bəyanat verən ABŞ Dövlət Departamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi indi özlərini elə aparırlar ki, sanki heç nə baş verməyib. Ermənistandakı repressiv proseslərə susmaq özü riyakarlıq, ikiüzlülükdür. Vaxtilə Ermənistanda müxalif siyasətçi və jurnalist Mher Yeqizaryan həbsxanada etdiyi aclığın ardından vəfat etdikdə də Qərb ölkələri və beynəlxalq təşkilatlar müəmmalı susqunluq nümayiş etdirdilər".

"Bu gün açıq şəkildə görürük ki, Ermənistanda totalitar inqilabi diktatura qurulub" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, populist çıxışları ilə tanınan Paşinyan hakimiyyətə gəldikdən sonra "demokratiya" adı altında ölkənin tanınmış siyasi və ictimai xadimlərinə qarşı repressiv vasitələrdən geniş şəkildə istifadə edib və onları bir-bir sıradan çıxararaq zərərsizləşdirib: "Belə olan vəziyyətdə Şennaklar, Sunnalar hara baxır? Niyə AŞPA hadisələrə müdaxilə edib, bəyanatlar vermir, Paşinyan hakimiyyətinə sanksiyalar tətbiq etmir? Deməki, demokratiya deyib dünyanı istismar edən bu kimi təşkilatlar ikistandartlıdırlar, qeyri-obyektivdirlər. Azərbaycanda ən xırda məsələyə reaksiya verdikləri halda, Ermənistanda baş verən qanunsuzluğa qarşı bir dəfə də olsun hansısa ittiham səsləndirməyiblər. Görünür, onların demokratiyasının fəlsəfəsi də budur...".

**Gülyana**

# “Demokratiya kökəsi” əvəzinə, “totalitarizm kötəyi”

*Yaxud Paşinyan totalitarizmi ilə AXC-Müsavat diktaturasını eyniləşdirən faktorlar*



***Bu gün Ermənistanda baş verən hadisələr onu isbat edir ki, Paşinyan küçə populizmi üzərində “demokratiya” pərdəsi altında totalitarizm idarəçilik sistemi formalaşdırır. Siyasi müxalifətin məhv edilməsi, azad sözün, sərbəst toplaşma azadlıqlarının boğulması, açıq qisasçılıq oyunlarının aparılması son günlər Paşinyan totalitarizminin əsas ştrixlərinə çevrilib. Siyasi böhran amillərinin üzərinə koronavirus pandemiyasının və ağır sosial-iqtisadi şərtlərin əlavə olması bu ölkədəki vəziyyəti daha da xaotikləşdirir.***

Artıq ermənilər Paşinyanı hakimiyyətə gətirdiklərinə peşman olurlar. Elə keçirilmiş son sosioloji sorğuda ermənilərin 74 faizinin sosial problemlərin həllini gözlədiyini, lakin artıq ümidlərinin itdiyini bildirməsi Paşinyan hakimiyyətinə ictimai güzgü tutmuş olur. Hətta, “Euronews” kanalında dərdlərini danışan ermənilər açıq şəkildə bildirirlər ki, onlar Paşinyana inanmaqda səhvə yol veriblər. Eləcə də yeni idarəçilik modeli qurulmadan köhnə siyasi sistemin dağıdılması da Ermənistanda sosial-siyasi institutların daha dərin eroziyaya məruz qalmasına səbəb olur. Bir sözlə, bu gün sadə ermənilər böyük peşmançılıq içərisindədirlər. Onlar Paşinyandan “demokratiya kökəsi” əvəzinə, “totalitarizm kötəyi” gördülər...

Əslində, bu gün ermənilərin gördüklərini Azərbaycan xalqı düz 28 il öncə yaşayıb. 1992-ci ildə AXC-Müsavat tandemində birləşmiş paşinyankimilər küçə populizmi ilə hakimiyyəti zəbt etdilər və ondan sonra da bu gün Paşinyanın törətdiklərindən daha dəhşətini hazırda paşinyanlaşmış əli kərimli kimilər həyata keçirdilər. Bəs, Paşinyan totalitarizmi ilə AXC-Müsavat diktaturasını eyniləşdirən faktorlar hansılardır?

1. Küçədən hakimiyyətə gəldilər;

2. Populist vədlərlə xalqı aldatdılar, nəticədə xalqın gözləntiləri özünü doğrultmadı;

3. Sosial-iqtisadi problemlərin həlli əvəzinə siyasi qarşıdurmalar, hakimiyyət uğrunda mübarizə əsas gündəm oldu;

4. Söz azadlığı, sərbəst toplaşmaq hüququ boğuldu, jurnalistlər, siyasətçilər ictimai şəkildə döyüldü və öldürüldü;

5. Ölkə əhalisi aclıqla imtahana çəkildi;

6. Ölkəni qura və idarə edə biləcək vətənpərvər kadrlardan ibarət idarəçilər korpusu yaradılmadı;

7. Ölkənin siyasi elitası formalaşmadı;

8. Ümumi qaydada dövlət idarəçiliyinin böhranı və siyasi səriştəsizlik hökm sürdü və s.

Ümumi baxış prizmasından görürük ki, Paşinyan totalitarizmi ilə AXC-Müsavat diktaturasının qurulması və fəaliyyəti təxminən eynidir. Sadəcə adlar, rollar fərqlənir, nəticə isə eynidir.

Analogiya və hadisələrin gedişatı onu göstərir ki, Paşinyan totalitarizmini də AXC-Müsavat diktaturasının taleyi gözləyir. Xalq zamanında populist vədlərinə aldandığı AXC-Müsavat diktaturasını hakimiyyəti zəbt etməsindən cəmi 13 ay sonra birdəfəlik tarixin arxivinə göndərmişdi.

Bu gün AXC-Müsavat diktaturasının yolunu gedə Paşinyan totalitarizmi də xalqına “demokratiya kökəsi” əvəzinə, “totalitarizm kötəyi” yedirir. Çox güman ki, erməni xalqı nə qədər böyük səhv etdiyini artıq anlamağa başlayır və uzun sürməz, Paşinyan küçədən hakimiyyət kürsüsünə gətirildiyi kimi yenidən əvvəlki yerinə qaytarılar. Necə ki, 1993-cü ildə Azərbaycan xalqı AXC-Müsavat diktaturasına birdəfəlik son qoydu...

***Ramil Vəlibəyov,***
***YAP sosial media qrupunun rəhbəri***

## “Sarukyan Paşinyanın sonuncu qurbanı olmayacaq”

***“Avropa təsisatlarının, xüsusilə də Avropa Şurası Parlament Assambleyasının Ermənistanda baş verən proseslərə göz yumması yolverilməzdir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi məsələlər üzrə ekspert, politoloq İlqar Vəlizadə Ermənistanda baş verən son hadisələrlə bağlı beynəlxalq ictimaiyyətin reaksiyasından danışarkən deyib.***



O bildirib ki, bu, ikili standartların baris nümunəsidir və Ermənistanda gedən proseslər fonunda Nikol Paşinyanın Konstitusiya Məhkəməsinə qarşı iddiaları və atdığı addımlar siyasi legitimliyi olmayan addımlardır: “Nikol Paşinyan konstitusiya orqanı olan Konstitusiya Məhkəməsinə və onun hakimlərinə qarşı kampaniya aparıb. Son nəticə etibarilə referendum elan edib. Bu referendum özü-özlüyündə regitim deyil. Konstitusiya Məhkəməsinə qarşı yönəlmiş bir addımdır. AŞPA bütün bunlara heç bir reaksiya vermədi. Halbuki, bu siyasət Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində öhdəliklərə cavab vermir.

Qaqik Sarukyanla bağlı hadisələr də onu göstərdi ki, Ermənistanda ikinci böyük partiya və ölkədə birinci müxalifət partiyası hesab olunan “Çiçəklənən Ermənistan” partiyası və onun liderinə qarşı bu cür addımlar əlbəttə ki, yenə də qeyri-legitim addımdır və AŞPA, həmçinin digər Avropa təsisatları bununla bağlı heç bir bəyanat vermədilər”.

Politoloq vurğulayıb ki, bütün bu proseslərə göz yummaq həm Ermənistanın daxili siyasətində siyasi rəhbərliyin özbaşınalığına, həm də xarici siyasətində işğalçılıq siyasətini davam etdirməsinə şərait yaradacaq: “Nəticə etibarilə indiki hakimiyyətin gələcəkdə digər represiya addımlarını rahatlıqla atmasına imkan yaradacaq. Bu isə o deməkdir ki, Ermənistanın siyasi rəhbərliyi daxili siyasətində nə istəyirsə edə biləcək və heç kəs onların hərəkətlərini pisləməyəcək. Ermənistanın həm daxili siyasətinə qarşı, həm aqressiv xarici siyasətinə qarşı laqeydsizlik ölkə siyasətçilərinin və hakim dairələrinin iştahını daha da artıracaq. Xarici siyasətdə onlar öz işğalçılıq siyasətini davam etdirməyə cəhd edəcəklər. Sarukyan isə onların axırıncı qurbanı olmayacaq. Ermənistanın digər siyasi liderlərinə qarşı da represiyalar tətbiq olunacaq. Bu da Ermənistanın diktatura istiqamətində yolunu daha da açacaq”.

***Nigar Məmmədova***

# “Müxalifət özü-özünü ifşa edib”

***Sosial şəbəkələrdə müxalifət partiya sədrləri dövlətçilik maraqlarına zidd olan paylaşmalara edir, müzakirələr qurur, hətta bəzən neftin qiymətinin dünya bazarında aşağı düşməsindən Azərbaycana iqtisadi zərər dəyə biləcəyini belə sevinclə qeyd edirlər. “Səs” qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.***



İctimai Birliyin sədri bildirib ki, bu insanlar xalqın içərisində bütün nüfuzunu itirmiş insanlardır: “Sosial dayaqlarını itirmiş bu şəxslər sosial şəbəkələrə tapınaraq burda öz siyasi varlıqlarını göstərməyə çalışırlar. Burada da artıq diqqət etsək onlar tam özlərini biabır etmiş durumda görsənillər. Özlərinin xaricdəki söyüş kollektivi ilə bir müddət müəyyən baxış sayı əldə edən bu insanların artıq sosial şəbəkə izləyiciləri nəzərə çarpacaq şəkildə azalmağa doğru gedir. Burada hələ özlərinin yaratdığı trolları da nəzərə almaq lazımdır. Bu insanlar özləri bunu hiss edirlər və son vaxtlar təxribat, qarayaxma üsullarına əl atmaqla xalqı çaşdırmağa çalışırlar. Xüsusilə pandemiya dövründə yenidən fəallaşan bu şəxslər dövlətin gördüyü işlərə kölgə salmaqla guya vətəndaş mənafeyi güdməklə məşğuldurlar. 90-cı illərin əvvəllərində olduğu kimi çətin durumdan öz şəxsi ambisiyalarını yerinə yetirmək üçün istifadə sosial şəbəkələrdə təxribat və çaşdırıcı əməllərlə məşğuldurlar. Onların həmişə olduğu kimi bu dəfə də tutduqları bu əməlləri fiaskoya uğrayacaq. Lakin vətəndaşları indiki pandemiya dövründə çaşdırmaq təxribata çəkmək cinayətdir. Bu əməllərin qarşısı alınmalıdır”.

A.Xəlilov onu da bildirdi ki, müxalifət insanları pandemiya dövründə virusdan qorunmağa karantin qaydalarına əməl etməyə çağırmaq əvəzinə əksinə təxribatla onu yoluxdurmağa cəhd edirlər: “Məqsəd isə kütləvi yoluxmaya nail olmaq səhiyyəni çökdürmək və bunda hökuməti günahlandırmaqdı. Pandemiya istərsə də neft qiymətlərinin enməsi bununla əlaqəli digər sosial iqtisadi problemləri elə qələmə vermək istəyirlər ki bunu guya Azərbaycan hökuməti edib. Ancaq xalq başa düşür ki bu problemlər qlobal baş verən böhranlardır. Əksinə prezidentimizin gördüyü işlər sayəsində hökumətin gərgin əməyi olaraq Azərbaycanda bu gün vəziyyət digər ölkələrdən yaxşıdır. Sosial şəbəkələrdə bu tip əsassız ittihamlarla vətəndaşları təxribata çəkən əməllər baş ucalığı gətirməyəcək. Bizlər də ayıq olmalı bu əməllərə qarşı daha da səylə mübarizə aparmalı bu insanları ifşa etməliyik. Belə dövrlərdə vətəndaş dövlət həmrəyliyinə qarşı olan qüvvələrə qarşı sərt mübarizə aparılmalıdır. Yol verməmək olmaz ki bu təxribatçılar öz istəklərinə çata. Son vaxtlar sosial şəbəkələrdə istər bəzi müxalif qüvvələr olsun və ya digər xüsusi qruplar çox təhlükəli təxribatlarla məşğuldurlar. Dövlətçiliyimiz naminə daha fəal olmalı bu təxribatlara uymamalıyıq. Sosial şəbəkələrdə nəzarət sistemi əlaqədar qurumlar tərəfindən artırılmalıdır”.

***Gülyana***

## Nikol daha bir düşmən qazanır: David Tonoyan!

***Hakimiyyət müdafiə naziri David Tonoyanı istefaya göndərmək niyyətindədir. SİA xəbər verir ki, bu barədə Armenia Today yazır. Eyni zamanda “Joxovurd” qəzetinin hökumətdəki mənbəsinə istinad edən sayt onu da qeyd edir ki, Tonoyanı əvəzləyəcək şəxs də bəllidir. O, hazırkı dövrə qədər onun müavini işləmiş Makar Qambaryandır. Qeyd edək ki, son vaxtlar hakimiyyət daxilində qruplar arasında ciddi qarşıdurmalar və çəkişmələr yaşanmaqdadır. Xüsusilə Qagik Çarukyanın ətrafında baş verən olaylar fonunda hakimiyyətdəki qrupların bir çoxu onun müdafiəsinə qalxmağı düşünürlər. Məhz müdafiə naziri Tonoyanın da Çarukyanı müdafiə etməsi Paşinyanın nəzərindən yayınmayıb və ehtimal var ki, Tonoyan onun növbəti düşməni olacaq.***



Xatırladaq ki, buna qədər Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin rəhbəri və Paşinyanın ailəvi dostu olmuş Artur Vanetsyan da vəzifəsindən kənarlaşdırılaraq baş nazir tərəfinədn düşmən elan edilib. Hazırda Vanetsyan “Vətən” adlı siyasi partiya təsis edərək, müxalifət sıralarında yer alıb və hakimiyyətə iddiasını ortaya qoyub.

# Müsavatçılar Cəmil Həsənlini və Gültəkin Hacıbəylini hədəfə alır

*AXCP sədri Əli Kərimli isə nədənsə susur...*

***Əslində ənənəvi AXCP-Müsavat savaşı kimi daha çox nəzərə alınmalı olan "Milli Şura"-Müsavat qarşıdurması və bu qarşıdurma fonunda səslənən qarşılıqlı ittihamlar bir daha isbat edir ki, tərəflər bundan sonra əsla bir yerdə olmayacaqlar və bunun üçün elə Müsavat başqanı Arif Hacılının da bir müddət əvvəl dediyi kimi, "bütün körpülər yandırılıb".***

Digər tərəfdən, bu gün kimsəyə sirr deyil və açıq-aydın bəllidir ki, "Milli Şura" xarci anti-Azərbaycan dairələrinin marioneti, vassalı olaraq birbaşa AXCP sədri Əli Kərimlinin nəzarəti altında sözdə fəaliyyətdədir. Əgər bu gün sosial şəbəkələrdə müsavatçılara qarşı başda Cəmil Həsənli olmaqla - Gültəkin Hacıbəyli və başqa virtual söyüşçülər hərəkətə keçirlərsə, bunun da arxasında Ə.Kərimlinin dayanması kimsədə şübhə yaratmır.

### Fərəc Kərimli: "Biz niyə bədbəxt olduq, Cəmil Həsənli?"

Ancaq daha bir maraqlı məqam Müsavat üzvlərinin qarşı tərəfə verdikləri cavablarıdır. Məsələn, A.Hacılının müavini Fərəc Kərimli C.Həsənli-G.Hacıbəyli ikiliyinə cavabında bir sıra nüanslara toxunaraq qeyd edib ki, şər-böhtan kampaniyaları aparanlara cavab yazmamaq, üzərindən sükutla keçməmək olmur: "Nə qədər istəyirsən bu məsələlərin üstündən keçəsən, amma bu şər-böhtan kampaniyası aparanlara baxanda yazmaq lazım olduğunu görürsən. Deməli, Cəmil Həsənli Müsavat partiyası haqqında, "Bu bədbəxtlər" ifadəsini işlədərək demişdi ki, REAL-dan fərqli olaraq bir nəticəyə də nail olmadılar. Bir şey də əldə edə bilmədilər. Yəni onun özü kimi müəyyən edilmiş çərçivədən əyilərək keçsəydik, bu yolla parlament üzvü olsaydıq, bu uğurlu nəticə olacaqmış. Biz niyə bədbəxt olduq, Cəmil Həsənli?"

### Arif Hacılının müavini

### Cəmil Həsənlinin boynuna minnət qoydu və üzünə söz çırpıdı

Müsavatçıları hakimiyyətə işləməkdə, müxalifətə xəyanət etməkdə suçlayan "Milli Şura" üzvlərinə, əsasən də C.Həsənliyə xitab edən F.Kərimli xatırlatmaq edib və yazıb ki, o hər zaman əqidəsini dəyişən və mandat alverçisi olub. Müsavatçı funksioner bir mandata görə partiyadan istefa verməMüsa-



diklərini də Həsənlinin diqqətinə çatdıraraq bildirib ki, zamanında Müsavat partiyası "Milli Şura"da təmsil olunarkən, onun "vahid namizədliyini" dəstəkləyiblər və bu da səbəbsiz deyildi: "Bir mandata görə partiyamızdanmı çıxdıq? 10 il hakimiyyətin siyahısı ilə Milli Məclisdəmi oturduq? Bəlkə 2013-cü ildə prezidentliyə namizəd kimi müdafiə etməyimiz sizi çaşdırıb? Özünüz barədə yanlış fikrə düşmüsüz. Bu sizin şəxsiyyətinizlə, ya kimlərdənsə üstün olmağınızla bağlı deyildi. Sadəcə, o zaman müxalifətin vahid namizədinin olması vacib idi".

### "Gültəkin Hacıbəylini nəinki çıxış etmək, mitinqi aparmaq, hətta tribunada dayanmağa razı salmaq mümkün olmurdu"

"AXCP isə bizim irəli sürdüyümüz istənilən namizədə qarşı çıxacaqdı. Yalnız buna görə namizədlliyinizi müdafiə etdik. Vahid namizəd olmağınızın yeganə səbəbi budur", xatırladan F.Kərimli C.Həsənlinin heç zaman siyasi düşərgədə ciddi fiqur, mühüm şəxs olmadığını necə deyərlər, onun üzünə vurub, üstəlik bu gün yanında olduğu AXCP sədri Ə.Kərimlinin adamlarının həmin vaxtlarda ortada görüqnmədiklərini də qeyd edib: "Bu seçkilərdə az-çox uğurunuzun səbəbi isə Müsavatın sizi dəstəkləməsi ilə bağlıdır. İmzalarınızın əksəriyyətini müsavatçılar topladı. Seçki qərargahınız Müsavat qərargahı idi. Seçki kampaniyanızı isə əsasən müsavatçılar təşkil edirdi. Seçki günü məntəqələrdə, seçki dairələrində, MSK-da sizi əsasən müsavatçılar müdafiə etdi. Başqa vaxt göz çıxaran cəbhəçilərin əksəriyyəti seçki günü yoxa çıxmışdılar. Seçki komissiyalarında tərtib olunmuş aktların müsavatçılar və cəbhəçilər arasında olan nisbətinin 1/10-ə olduğunu bilirsinizmi? Debatlarda, hətta mitinqlərdə sizin müdafiəniz üçün çıxış etməkdən imtina edirdilər. İndi ən alovlu müdafiəçiniz Gültəkin Hacıbəylini nəinki çıxış etmək, mitinqi aparmaq, hətta tribunada dayanmağa razı salmaq mümkün olmurdu. Mənim məhkəməm var, deyib boyun qaçırırdı".

Müsavat başqanını müavini: "Bu həqiqətləri yaddan çıxarıb əllaməçilik etməyiniz ən böyük bədbəxtliyinizdir. Yazıqlar olsun".

Beləliklə, C.Həsənlinin həyatının ən böyük uğurunu Müsavatın, müsavatçıların hesabına qazandığını sözün əsl mənasında onun boynuna minnət kimi qoyan F.Kərimli bədbəxtin də onun özünün olduğunu bildirib: "Bunu dərk etməməyiniz, siyasətdə təsadüfi, epizodik adamların xoşuna gəlmək üçün bu həqiqətləri yaddan çıxarıb əllaməçilik etməyiniz ən böyük bədbəxtliyinizdir. Yazıqlar olsun".

Burada diqqət çəkən ən maraqlı məqam isə, AXCP sədri Ə.Kərimli tərəfindən müsavatçılara tərəf qısqırdılan C.Həsənlinin və G.Hacıbəylinin onun tərəfindən qəti şəkildə dəstəklənməməsidir. Daha dəqiq desək, əgər bu gün hər hansı müsavatçı qarşı tərəfə fikir yazırsa və orada Ə.Kərimlinin adı olmursa, həmin müsavatçılara qarşı elə də ciddi ölçülər götürülmür, lakin AXCP sədrinin də adının olduğu yerdə söyüş, həqarətlər sürətlə artmağa başlayır. Hər halda, olanlar da göz qabağındadır və bu məsələnin şişərək partlayacağı da an məsələsinə çevrilib...

**Rövşən RƏSULOV**

# Müxalifətçi deputatdan "Milli Şura"ya eyham və ittiham

*Fazil Mistafa: "Populist, əzbər, savadsız görüşlərinə şərik olmayanları linç edən bu sürü ilə sonadək çarpışdım və yerlərində oturtdum"*

***Son zamanlar müxalifətin radikal cinahı hesab edilən AXCP-"Milli Şura" cütlüyünün sosial şəbəkə rüsvayçılıqları və həmin rüsvayçılıqlardan doğan həqiqətlər, ifşalar destruktiv "liderləri", onların yan-yörələrində var-gəl edənləri sanki daha da azğınlaşdırmaqdadır.***



Onlara qarşı fikir söyləyən, arqimentli ifadələrlə çıxış edən hər kəs dərhal söyüşlərə məruz qalır, əsk gerçəklik barədə isə ümumiyyətlə danışılmır. Belə bir köhnə şakərlərindən əl çəkə bilməyən, siyasi məhvə aparan sindrom xəstəliyindən şəfa tapmağı bacarmayan radikallar müxtəlif üsullarla özlərini "təmizə çıxarmağa" cəhdlər göstərsələr də, buna nail olmağı bacarmırlar. Daim "xalq", "millət", "dövlət" kimi müqəddəs məfhumları sui-istifadə edərək, bunun arxasında gizlənən, həqiqətdə isə Azərbaycan dövlətinin və xalqının düşmənlərinə işləyən xainlər toplumu n qədər cəhdlər göstərsələr də, öz çirkab niyyətlərini gizlədə bilmirlər. Əbəs deyil ki, nəinki konstruktiv müxalifət təmsilçiləri, eləcə də radikal kəsimli müxalifətə aid olan partiya rəhbərlikləri də AXCP-"Milli Şura" cütlüyünün, bu cütlükdə təmsil olunan "liderciklərin" ifşalarını ortaya qoyurlar.

BQP başqanı: "Şəxsimə, yaxınlarıma qarşı hər cür tərbiyəsizlik etdilər, hər cür şantaja, böhtana əl atdılar, bircə normal intellektual mübarizə apara bilmədilər"

Bu arada, Böyük Quruluş Partiyasının (BQP) başqanı, deputat Fazil Mustafa da bu kimi məsələlərə münasibətini bildirib.SİA xəbər verir ki, Facebook sosial şəbəkəsində fikirlərini bildirən deputat son vaxtlar ona qarşı da aparılan təhqir kamaniyalarını şərh edərək yazıb ki, son bir həftədə Azərbaycanın baş bəlası olan və normal təhsil almadan sosial şəbəkəyə doluşaraq öz cahil görüşlərini diqtə etməyə çalışanlarla amansız mübarizə apardım. SİTAT: "Populist, əzbər, savadsız görüşlərinə şərik olmayanları linç edən bu sürü ilə sonadək çarpışdım və yerlərində oturtdum. Şəxsimə, yaxınlarıma qarşı hər cür tərbiyəsizlik etdilər, hər cür şantaja, böhtana əl atdılar, bircə normal intellektual mübarizə apara bilmədilər. Yazılarımla, mövqeyimlə anlatdım ki, bundan sonra da qaragüruhçuların və qaragüruhçuluğun qarşısında ən sərt formada duracağam və imkan verməyəcəyəm ki, Azərbaycanda bəzi ziyalı adlandırılan məxluqları öz "oturmayan erməni" anlayışına tabe etdirdikləri kimi bizlərə də nəyisə diqtə edə bilsinlər". "Ancaq bir durum hələ də mənə anlaşılmaz qalır", yazan BQP başqanı qeyd edib ki, kimsə təhqiramiz yazı yazır, yaxud da mövzunu anlamadan savadsız rəy yazır, adama yazıram ki, bu danabaşlıqla yazdığımı anlamanız çətin olacaq: "Bir də görürəm ki, hansısa səhifədə paylaşım edib: F.Mustafa millətə danabaş dedi. Sonra baxıram ki, novruzəlinin vecinə deyil ki, həqiqətən millətə bu söz deyilib, oxumadan-bilmədən təhqirlərini yağdırır e üstümüzə...Deyəsən hamı özünü millət, xalq yerində görür".

**R. Nurəddinoğlu**

## Ağdamda iki "Mercedes" toqquşdu, ölən var

Ağdam rayonunun Alıbəyli kəndi ərazisində "Mercedes" markalı iki avtomobil toqquşub. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, iyunun 18-də saat 2 radələrində Ağdam rayonunun Alıbəyli kəndi ərazisində rayon sakinləri Ş.Əliyevin və İ.Rzayevin idarə etdikləri "Mercedes" markalı avtomobillər toqquşub. Nəticədə Ş.Əliyevin sərnişini Ağdam rayon sakini Sərvan Baxışov hadisə yerində ölüb. Ağdam RPŞ tərəfindən araşdırma aparılır.

# "Ermənistanda demokratiya yoxdur və olmayacaq da"

***Bir məsələni nəzərə alaq ki, Ermənistanda demokratiya siyasi, daha oğrusu geosiyasi kriteriyadır. Bu sözləri SİA-ya müsahibəsində Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin (SİTM) rəhbəri, politoloq Mübariz Əhmədoğlu deyib.***

Mərkəzin rəhbəri qeyd edib ki, Avrokomissiyanın genişlənmə üzrə bir komissiyası var idi, Çexiyada idi gərək ki, səhv etmirəmsə 2015-ci il Ermənistanda yerli seçkilərdə dava düşdü, güllənbaran, güllələnmə oldu, adam öldü və məhz həmin günü komissar Serj Sarkisyana Ermənistanda demokratiyanın inkişafına görə 60 milyon avrop pul verdi, yəni Avropada həmişə biliblər ki, Ermənistanda demokratiya yoxdur, olmayacaq da: "Onlar başa düşüblər ki, əgər Qərb dövlətləri, Qərb



dairələri desələr ki, Ermənistanda demokratiya yoxdur, bu zaman ən azı onların nöqteyi nəzərincə Ermənistan Azərbaycana bərabər olmalıdır. Onlarsa bunu qəbul ed bilmirlər. Çünki, Azərbaycan bütün parametrlər üzrə Ermənistandan üstündür, Ermənistanın haçansa Azərbaycana çatması qeyri-mümkündür. Yalnız bir şey edə bilir Qərb dairələri xristian parametrləri üzrə ki, Ermənistan nədəsə bir şeydə üstün olsun, üstün görünsün Azərbaycandan. O da yeni elə bax bu demokratiya, söz azadlığı kimi belə məsələlərdə özləri saxta rəy də yazırlar, qiymət də verirlər, hətta bir mükafatlandırırlar da. Hazırda Azərbaycanın, bizim rəsmilərimizin gücü çatan məsələ deyil. Bizim halhazırda rəsmilərimizin əsas səyi yönəlməlidir ki, Cənubi Qafqaz üzrə demokratiya, insan hüquqları parametrləri üzrə Qərbdən, tutaq ki, lap elə Avropa ittifaqından vahid bir meyarın yaradılması, vahid bir meyar üzrə işləyən qrumin yaradılması reallaşdırılsın. Yəni, əgər Avropada hansısa bir qurum yaradılarsa və o qurum Azərbaycanda, Gürcüstanda, Ermənistandakı demokratiyaya eyni prizmadan yanaşarsa, bu birinci növbədə Qərbin özünün xeyrinədir, çünki bu, Cənubi Qafqaz regionunda gedən proseslərin sağlamlaşmasına xidmət edəcək".

Mənim mövqeyim hamıya bəllidir. İnanın ki, hakimiyyətin, dövlətin mövqeyində durduğum üçün demirəm, sırf həqiqətin mövqeyində durduğum üçün deyirəm ki, o komissiya yaransa, mən bu üç dövlətin hər üçündə baş verənlərdən məlumatlı adam kimi deyirəm, o komissiya yaransa görünəcək ki, bu üç dövlət içərisində demokratiyanın ən güclü olduğu Azərbaycandır. O mənada vahid meyarın, vahid mexanizmin yaradılması vacibdir. Qərbdə, Avropada, Cənubi Qafqazdakı demokratiyanı ölçən, vahid bir meyarla ölçən qurumdan söhbət gedir", deyə Mübariz Əhmədoğlu bildirib.

***İnam Hacıyev***

# Gəlmə xalq




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Məlum olduğu kimi, tarixən də, müasir dövrdə də Qafqaz dünyada özünün geosiyasi və geostrateji əhəmiyyətilə fərqlənən bir regiondur. Siyasi, iqtisadi, sosial, mədəni-mənəvi, etnik, dini, maddi və mənəvi mədəniyyəti, özünəməxsus mentaliteti, idendikliyi, dil müxtəlifliyi, ərazisinin genişliyilə Qafqaz aparıcı güclərin diqqət mərkəzindədir. Hələ qədim zamanlardan Qafqazda müxtəlif xalqların, çarlıqların, Qafqaz uğrunda böyük imperiyaların apardıqları müharibələrin IX-XVII əsrlərdə xalqların böyük köçünün, müxtəlif dinlərin, dillərin, mədəniyyətlərin mövcudluğu dediklərimizi sübut edir.***

Beynəlxalq aləmdə Qafqazın əsasən iki bölgüsü mövcuddur: Şimali və Cənubi Qafqaz. Müasir Qafqazın hüdüdlarını təbii-landşaft və siyasi amillərlə müəyyən edirlər. Bu hüdudlarda coğrafi və mədəni-tarixi region kimi Qafqazın sahəsi 440 min kv km hesab olunur. Bəzi tədqiqatlar Qafqazın yeni coğrafi bölgü modelini irəli sürürlər.

Avropa və Asiya arasında yerləşən Qafqaza hunlar, monqollar, ərəblər, türk-səlcuqlar, iranlılar hücum etmiş, bu hücumlar isə Qafqazın siyasi, dini, iqtisadi, etnik, demoqrafik şəraitinə təsir etmişdir. Bəzi etnoslar məhv olmuş, əvəzinə başqaları gəlmiş sonra isə onlar qafqazlılara çevrilmişlər.

Bəzi alimlər müasir Türkiyə və İrandakı bir çox ərazinin Qafqaza aid olduğunu iddia edirlər. Onlar "siyasi" və "çoğrafi" amilləri fərqləndirməyi təklif edirlər. Gürcü tədqiqatçısı, İ.Çavaxaşvili adına Tbilisi Dövlət Universitetnin professoru, tarix elmləri doktoru R.Topçilaşvili İsveçrədə çıxan "Central Asia and the Caucasus" jurnalında çap etdirdiyi "Tarixi və müasir Qafqazda etnik şərait" adlı məqaləsində yazır:

"Bizim fikrimizcə bu olduqca ciddi problemdir. Elmi terminologiya konfesionaldır, daha doğrusu alimlər arasında razılaşma əsasında formalaşır. Tamamilə münkündür ki, tədqiqatçılar və siyasətçilər müasir dövrdə Qafqazın üç coğrafi vahidə bölgüsü haqqındakı məsələdə (bu reallığa uyğun gəlir): Şimali Qafqaza, Mərkəzi Qafqaza (hazırda Cənubi Qafqaz adlanır) və Cənubi Qafqazla bağlı məsələdə (İran və Türkiyənin tərkibinə daxil olmuş Kiçik Qafqaz ərazisi) vahid rəyə gələcəklər". Lakin alimin bu fikri müasir siyasi alimlər arasında yekdil fikir yaratmadı. Belə ki, əksər tədqiqatçılar Qafqazı Şimali və Cənubi Qafqaza ayırırlar.

Cənubi Qafqazda tədqiqatçılar və tarixi mənbələr Ermənistan adlı dövlətin və ya çarlığın mövcud olmadığını sübut edir. Bu bölgədə alban, kartli, laz çarlığının, Azəbaycanın qədim dövlətinin mövcudluğundan bəhs edilir.

Cənubi Qafqazda orta əsrlərdə Azərbaycan da Şirvanşahlar, Sacilər, Rəvvadilər, Gürcüstanda paytaxtı Kutaisi olan Abxaz, paytaxtı Telavi olan Ereti çarlıqları, mərkəzi Tianeti olan Kaxetiya və mərkəzi Artanuçi olan Kartvel knyazlıqları, mərkəzi Tiflis olan Şuabidlər-Cəfəridlər ərəb əmirliyi (716-1122-ci illər) mövcud idi. Cənubi Qafqaz uğrunda Ərəb xəlafəti ilə Bizans imperiyası arasında müharibələr baş vermişdir.

Rusiya alimi, jurnalist və tarixcisi V.L. Veliçko 1904-cu ildə Sankt-Peterburqda çap etdirdiyi "Qafqaz. Rus işi və tayfalararası məsələlər" adlı əsərində Qafqazın, Cənubi Qafqazın Rusiya imperiyası üçün böyük siyasi, iqtisadi əhəmiyyətinin olmasının eləcə də, buranın təbii sərvəti, çöğrafi mövqeyi, əhalisi haqqında məlumat vermişdir. Rusiya əsgərlərinin qəhramanlığı və ağır itkiləri hesabına ağlagəlməz gərginlikləri bahasına fəth edilən Qafqazdakı imperiyanın uçqarlardakı siyasətinin səhvlərindən və günahlarından bəhs edən V.L.Veliçko bir çox rus adamlarında, istər qulluçularda, istərsə də cəmiyyətə mətbuat vasitəsilə təsir etmək çəsarətini öhdəsinə götürənlərdə milli dövlət dünyagörüşünün möhkəm olmadığını diqqətə çatdıraraq yazırdı:

"Qafqazda həyat hadisələri və insan xarakterləri fövqəladə dərəcədə mürəkkəbdir. İrqi və sosial-iqtisadi məsələlərin bəzən və tamamilə üst-üstə düşməsi və qovuşması xüsusi maraq doğurur. Qafqaz həyatının bu xüsusiyyətləri yerli hakimiyyət orqanlarının diyarın idarə olunması və ona nəzarət edilməsi işində çətinliklər yaratmır".

Qafqazda əsrlər boyu sakitliyin, rahatlığın olmadığını Asiyadan Avropaya müxtəlif hərbi güclərin müdaxiləsi üçün buranın bir yol olduğunu, həmin hücum edənlərin burada öz izini qoyan fərqli tayfaların, dinlərin, mədəniyyətlərin, təbii sərvətlərin, bu insanların təbii, siyasi, iqtisadi amillərdən burada birləşmiş və mədəni inkişaf etmiş dövlət qura bilmədikləri bir məkan olduğunu qeyd edən V.L.Veliçko Qərbi Zaqafqaziyada qədim vaxtlardan kartvel tayfalarının - gürcülərin, imeretinlərin, quriyalıların, meqrellərin, lazların, acarların, kobuletlilərin məskunlaşdıqlarını bu tayfaların orta əsrlərdə qısa müddətdə birləşdiklərini, sonrakı vaxtlarda isə dağıldıqlarını göstərir. Şərqi Zaqafqaziyada qədimdən "türk-monqol, İran qanından olanlar, türklər yaşamışlar. Müasir dövrdə- XIX əsrdə qeyri-müəyən mənşəyə malik, şübhəsiz yəhudi, sirohaldey və qaraçı qanlarının qarışığından olan ermənilər yaşayırdılar.

Qafqazı bütün bəşər tarixi boyu daim təlatümlü bir region hesab edən, bunu ilk növbədə regionun coğrafi və strateji mövqeyi, eləcə də müxtəlif dinlərin və sivilizasiyaların kəsişməsində yerləşməsi ilə əlaqələndirən İ.Həbibbərli yazır: "Bu faktorlar yaşadığımız minillikdə də Qafqazın geosiyasi mövqeyinin müəyyən olunmasında əhəmiyyətli yer tutur. Lakin fikrimizcə, günümüzdə Qafqazda mövcud vəziyyətin daim bir barıt çəlləyini xatırlatması XVII-XVIII əsr Rusiya- Türkiyə və Rusiya-İran müharibələri nəticəsində ermənilərin bu regiona kütləvi köçürülməsi ilə birbaşa əlaqədardır. Təsadüfi deyil ki, bütün tarix boyunca "böyük dövlətlərin maşası'' rolunu yerinə yetirən ermənilər son 200 il ərzində bütün Qafqazda sabitliyi pozan, dağıdıcı funksiyanı yerinə yetirmişlər. Ermənilərin bu dağıdıcılıq funksiyası həm Cənubi Qafqazın müstəqil respublikaları olan Azərbaycan və Gürcüstanda, həm də ümumilikdə bütün Qafqazda özünü göstərir. Cəmi bir neçə yüz il əvvəl bu regiona köçürülən və XX əsrin əvvəllərində öz xüsusi "xidmətlərinə'' görə qədim Azərbaycan torpaqlarında "dövlət payı'' əldə etdikdən sonra da erməni adı Qafqazda separatizmin simvolu kimi tanınır. Belə ki, artıq özgə torpaqlarında özünə yuva quran ermənilər üçüncü minilliyə doğru Qafqazda yeni separatizm ocaqlarını alovlandırırlar. Buna şərait yaradan isə ilk növbədə böyük dövlətlərin - güc mərkəzlərinin region ölkələrinə dair yanaşmasında ikili standartların olmasıdır. Keçən əsrin sonlarında Ermənistanda yaşayan azərbaycanlılar və gürcülər tarixən sahibi olduqları torpaqlardan qovuldular. İrəvan, Zəngəzur, Dərələyəz, Göyçə mahallarında bir azərbaycanlının belə qalmadığı zaman Gürcüstanla sərhəddə yerləşən Lori vilayətindən də gürcü və azərbaycanlılar qovuldu.

Yeni hədəflər Azərbaycanın Dağlıq Qarabağı, Gürcüstanda isə Samsxe-Cavaxeti və Abxaziya bölgələridir. Azərbaycanın Dağlıq Qarabağ ərazisi artıq 25 ildən çoxdur ki, erməni işğalı altındadır. Gürcüstanda "Cavaxk" separatist hərəkatı müxtəlif sahələr üzrə Gürcüstanda erməniləşdirmə təbliğatını aparır. Gürcüstanın separatistlərin nəzarətində olan hər iki bölgəsində - Abxaziya və Tsxinvalidə (Cənubi Osetiya) erməni izi var. Əslində Rusiyanın Krasnodar və Stavropol vilayətlərində ermənilərin güclənməkdə olan mövqeyinin separatizm iddialarına çevrilməyəcəyinə də zəmanət vermək mümkün deyil.

Ümumiyyətlə ermənilərin regionda qonşularına qarşı əsassız ərazi iddiaları davam etdikcə Qafqazda davamlı sülh və sabitlik haqqında düşünmək mümkün deyil. "Böyük Ermənistan'' şovinist ideyalarına son qoyulmayınca Qafqazda heç zaman daimi sabitlik olmayacaqdır".

"Murç" qəzetinin 1887-ci il sayında ermənilərin mənşəyi barədə "Qaraçılardan əmələ gələn ermənilər" başlığı olan məqalədə yazılmışdır:

"Dünyada milli dili və vətəni olmayan ancaq iki xalq mövcuddur, bunlar yəhudilər və qaraçılardır. Nə Asiya istibdadı, nə orta əsrlərin amansız təqibi, nə də hətta müasir humanist mədəniyyət onları başqa xalqlarla assimilyasiya edə bilməmişdir və beləliklə də bütün bu güclü amillərin həmin xalqlardan birinin maddi tamahkarlığını və o birisinin isə qarşısıalınmaz hədsiz-hüdudsuz şəkildə sərgərdan köçmək cəhdini boğmağa gücü yox idi. Hər yerdə, Asiyada, yaxud Avropada, köhnə və yeni dünyada qaraçı qaraçı olaraq, yəhudi isə yəhudi olaraq qalır. Qaraçılarn assimiliyasiyası yalnız erməni xalqına müyəssər olur - məqalə müəllifi əlavə edir ki bunu da əssasız olaraq yox, mötəbər faktlara istinad edərək deyirəm. Mövcud olmalarını tarixin 50 il əvvəl təsdiq etdiyi İrəvan, Şamaxı, Yelizavetpol, Tiflis və başqa yerlərin qaraçıları qaraçılıqdan çıxıb erməni ünsürləri ilə qarışaraq mənşələri haqqında uzaq bir xatirə kimi yalnız familyalarını saxlayaraq, ermənilərlə assimilyasiya olunmuşlar. Bu məsələ hansı tərəfdən baxsan, kütləvi assimilyasiya işinin ermənilərdən başqa heç bir xalqa müyəssər olmadığı fikrinə gələcəksən. Assimilyasiya olunmuş qaraçı-ermənilərdən hətta istedadlı adamlar da yetişmişdir".

Araşdırmalardan məlum olur ki, ermənilər ərazilərinin, dövlətlərinin deyil, etnoslarının tarixini öyrənmişlər. "Erməni xalqının tarixi" əsərini yazmışlar. Etnoslarının adı da dünya tarixşünaslığında mübahisə doğuran ermənilər özlərini mifoloji xarakter daşıyan "Haykın nəsilləri" adlandırırlar.

Ermənilər Cənubi Qafqaza, o cümlədən müasir Gürcüstan və Azərbaycan ərazilərinə Qərbdən, Avropadan, Balkandan gəlmişlər.

Görkəmli Qərb tədqiqatçısı N.Adonsun araşdırmalarına görə, eramızdan əvvəl VIII əsrdə Frakiyada, Balkanlarda kimmerlər "ermənilərin əcdadları ilə görüşmüş və onları özlərilə Şərqə - Kiçik Asiyaya aparmışlar".

Herodot "Tarix" əsərində erməniləri firikiyalıların nəsli hesab edirdi.

İ.Şopen də "ermənilərin gəlmə olduqlarını, Anadolu dağlarının Şimal düzənliklərinə Friqiya və İoniyadan gəldiklərini" göstərir.

***Vahid Ömərov***
***f.ü.f.d,dosent***

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

19 iyun

Son səhifə

# Həbsxanadan qaçdılar, məktub yazıb qayıdacaqlarına söz verdilər



**İtaliyanın paytaxtı Roma şəhərində yerləşən həbsxanadan qaçan iki məhbusgeri qayıdacaqları ilə bağlı məktub yazıb. "La Repubblica" nəşri xəbər verir ki, həbsxana nəzarətçiləri qaraçı millətindən olan məhbusların yoxa çıxmasından2-3 saat sonra xəbər tutublar. Məhbusların yaxın qohumluq əlaqələri var.**

Lil Ahmetoviç və Davad Zukanoviç kameranın barmaqlıqlarını mişarlayaraq, cəzaçəkmə müəssisəsindən çıxıblar. Onların yazdığı məktubda qeyd olunur ki, övladları narkotik ticarəti şəbəkəsinin təsiri altına düşüb və yeniyetmələrin həyatını xilas etməlidirlər.

Məhkumlar işlərini həll edən kimi həbsxanaya qayıtmağa söz veriblər və məktuba imza atıblar. Onlar iki həftə ərzində geri qayıdacaqlarına söz veriblər.

Lakin məhbuslar həbsxanaya könüllü şəkildə qayıtmayıblar. Polis cinayətkarları Romadan 340 kilometr aralıda yerləşən Pizaşəhərində yaxalayıb. Saxlanılan vaxt məhbuslar hüquq-mühafizə orqanlarının əməkdaşlarına silahlı müqavimət göstəriblər.

Onların cəzası 2029-cu ildə bitməli idi. L.Ahmetoviç və D.Zukanoviç qaçışa görə, daha beş il əlavə həbs cəzası ala bilərlər.

# "Qarabağ" Azərbaycan çempionu elan edildi!



**Dünən AFFA-nın İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib. Qol.az-ın xəbərinə görə, iclasda AFFA-nın prezidenti Rövnəq Abdullayev, icraçı vitse-prezident Elxan Məmmədov, vitse-prezidentlər Rauf Əliyev, Elşad Nəsirov, Vaqif Sadıqov, İcraiyyə Komitəsinin digər üzvləri - Kazbek Tuayev, İsgəndər Cavadov, Elmar Məmmədyarov, Mahir Məmmədov, Firudin Qurbanov, Zaur Axundov və Könül Mehtiyeva, Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev, İctimai Futbol Təşkilatları İctimai Birliyinin prezidenti Elxan Tağızadə və AFFA-nın baş həkimi Vyaçeslav Xomenko iştirak ediblər.**

COVID-19 qlobal pandemiyası ilə əlaqədar qeyri-müəyyən müddətə təxirə salınmış, iyunun 21-də bərpa olunması nəzərdə tutulan Azərbaycan Premyer Liqasının oyunlarının davam etdirilib-etdirilməməsi ilə bağlı məsələnin müzakirə olunduğu iclasda PFL-in prezidenti Ramin Musayev və AFFA-nın baş həkimi Vyaçeslav Xomenko çıxış ediblər. Ardınca İcraiyyə Komitəsinin bütün üzvləri qeyd olunan məsələ haqqında fikirlərini səsləndiriblər. Aparılmış müzakirələrdən sonra bir sıra vacib qərarlar qəbul edilib. Beləliklə, bu qərarlara əsasən, hazırkı turnir cədvəlinə uyğun olaraq lider "Qarabağ" Azərbaycan çempionu olub. "Neftçi" gümüş, "Keşlə" bürünc medalı qazanıb. 2020/21 mövsümündə "Qarabağ" Azərbaycanı Çempionlar Liqası, "Neftçi", "Keşlə" və dördüncü yerin sahibi "Sumqayıt" isə Avropa Liqasında təmsil edəcək.

# Bu ilin ilk Günəş tutulması iyunun 21-də baş verəcək

2020-ci ilin ilk Günəş tutulması hadisəsi iyunun 21-nə təsadüf edəcək. AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikayılovun sözlərinə görə, tutulma Bakı vaxtı ilə saat 07:46 radələrində başlayacaq, saat 13:34-də sona çatacaq. Tutulmanın maksimum həddi 10:41-də olacaq. Bu təbiət hadisəsi təxminən 5 saat 48 dəqiqə davam edəcək. Bu barədə xezerxeber.az-a AMEA-dan məlumat verilib. Bildirilib ki, Xıdır Mikayılov Günəş tutulmasının Afrika, Cənub-Şərqi Avropa və Asiyada da müşahidə ediləcəyini vurğulayıb. "Prosesin halqavarı fazasını isə Mərkəzi Afrika Respublikası, Konqo və Efiopiya da daxil olmaqla, Afrikanın bir hissəsi, Pakistanın cənubu, Hindistanın şimalı və Çindən müşahidə etmək mümkün olacaq. Bu ölkələrin sakinləri tutulmanın maksimum fazasında tutulma ətrafında xarakterik yanar halqa görəcəklər".



# "Çelsi" 50 milyon dollara futbolçu transfer etdi

"Çelsi" heyətinə yeni futbolçu cəlb edib. İngiltərə klubunun saytında yer alan məlumatda deyilir ki, London klubu "Leyptsiq"in hücumçusu Timo Verneri transfer edib. Onunla 5 illik müqavilə imzalanıb. 24 yaşlı oyunçu fiziki müayinədən keçdikdən sonra iyulda "Çelsi"nin düşərgəsinə qoşulacaq. Bu transfer üçün Premyer Liqa təmsilçisi 47.5 milyon funt sterlinq ödəyəcək. Alman oyunçu isə yeni klubunda həftəsinə 170 min funt sterlinq qazanacaq. Qeyd edək ki, Verner bu mövsüm Bundesliqda 32 matçda 26 qol vurub, 8 qolun ötürməsini verib.



# Avropada yay transfer pəncərəsi payızda başa çatacaq

**UEFA İcraiyyə Komitəsi 2020/2021 mövsümündə avrokuboklarda iştirak edəcək oyunçuların qeydiyyatı üçün son tarixi açıqlayıb. Qurumun rəsmi "Twitter" səhifəsində yer alan məlumatda deyilir ki, növbəti mövsüm avrokubokların qrup mərhələləri üçünsifariş ərizəsininqəbulu üçün son tarix - 6 oktyabr təyin edilib.**



Qurum bütün milli assosiasiyaları yay transfer dönəmini oktyabrın 5-də başa çatdırmağa çağırıb. Qeyd edək ki, növbəti avrokubok mövsümünə avqustun 8-də UEFA Çempionlar Liqasının ilkin mərhələsinin oyunları ilə start veriləcək.

# Bakıda 2 nəfərdən 11 kiloqrama yaxın narkotik vasitə götürülüb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini qətiyyətlə davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Sabunçu rayonu ərazisində Bakı şəhər sakinləri M.Xalıqovdan 1 kiloqram 25 qram heroin, 500,171 qram metamfetamin və E.Nəbiyevdən 50,375 qram heroin götürülüb. E.Nəbiyevin Maştağa qəsəbəsindəki yaşadığı evə baxış zamanı isə 3 kiloqram 75 qram heroin, 5 kiloqram 10 qram marixuana və 1 kiloqram 80 qram metamfetamin aşkar edilib. Faktla bağlı araşdırma aparılır.



# Ronaldo üçün ilk antirekord...



"Yuventus"un futbolçusu Kriştiano Ronaldo karyerası ərzində ilk dəfə iki finalda ardıcıl uduzub. Bu barədə "Opta" məlumat yayıb. Portuqaliyalı hücumçu son olaraq İtaliya kubokunun finalında dünən keçirilən "Napoli" ilə matçda (əsas vaxt - 0:0, penaltilər seriyası - 2:4) iştirak edib və meydanı məğlub tərk edib.

Xatırladaq ki, Ronaldo Turin təmsilçisinin tərkibində ötən ilin dekabrında İtaliya superkuboku uğrunda oyunda "Latsio"ua uduzmuşdu (1:3).

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600